Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 260 (7987) BAZAR, 18 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





# Azərbaycan Asiya ilə Avropa arasında logistik əlaqə yaradır

## İlham Əliyevin qlobal miqyaslı təşəbbüsləri ölkəmizi mühüm nəqliyyat-tranzit və ticarət mərkəzinə çevirməkdədir

**Müasir dövrdə ölkələr arasında əlaqələrin məzmunu yeni keyfiyyət dəyişikliklərinə məruz qalsa da, ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını yenə də qoruyub saxlayır. Xüsusən, qloballaşan dünyamızın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir.**

Tarixi İpək yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, ən uzaq ölkətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Cəmi 27 ildir ki, müstəqil dövlət kimi yaşayan Azərbaycan bu qısa zaman ərzində nəqliyyat infrastrukturunu getdikcə daha da möhkəmləndirərək dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar yatırıb. Bu sərmayələr artıq ölkəmizə böyük iqtisadi və siyasi uğurlar gətirməkdədir.

### Açıq dənizlərə, okeanlara çıxışı olmayan ölkənin yüksələn tranzit potensialı

Unikal coğrafi geosiyasi şəraitə malik olan Azərbaycan bu gün dünya təsərrüfatının nəqliyyat sektorunda baş verən proseslərdən kənarda qalmır.

Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi ilə həyata keçirilən nəhəng regional layihələr ölkəmizin nəqliyyat qovşağına çevrilməsinə, tranzit potensialının güclənməsinə xidmət edir. Digər sahələrdə olduğu kimi, ölkə iqtisadiyyatında da əhəmiyyəti böyük olan nəqliyyat sektorunun inkişafı, tranzit imkanlarının genişləndirilməsi üçün mühüm işlər görülür. Həm ölkə daxilində müasir nəqliyyat infrastrukturu yaradılır, həm də tranzit potensialı gücləndirilir.

Bəllidir ki, Azərbaycanın açıq dənizlərə, okeanlara çıxışı yoxdur. Bu səbəbdən də ölkənin bütün nəqliyyat, enerji, kommunikasiya xətləri başqa digər dövlətlərin ərazisindən keçməlidir. Buna nail olmaq üçün öncə qonşu dövlətlərlə və daha böyük coğrafiyanı əhatə edən ölkələrlə çox sıx dostluq münasibətləri yaradılmalıdır.

İlham Əliyevin həyata keçirdiyi tam müstəqil xarici siyasət nəticəsində Azərbaycan Ermənistan istisna olmaqla bölgədəki bütün dövlətlərlə çox yaxşı dostluq münasibətləri qurub. Bu münasibətlər sayəsində isə beynəlxalq layihələr gerçəkləşdirilib.

### Son 15 ildə yaradılan müasir nəqliyyat infrastrukturu

İnfrastruktur obyektlərinin yaradılması, logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Nəzər yetirsək görərik ki, son 15 ildə Azərbaycanda çox müasir nəqliyyat infrastrukturu yaradılıb. Bunların sırasında 6 beynəlxalq hava limanı, ölkəmizi bütün qonşu ölkələrlə bağlayan 15 min kilometrdən çox avtomobil yolları, Xəzər hövzəsində 200-dən çox gəmisi olan ən böyük ticarət donanması, Bakı-Tbilisi-Qars dəmir yolu, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanını göstərmək olar.

Qitələrarası daşımalar üçün geniş imkanlar açan Bakı-Tbilisi-Qars dəmir yolu Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut hesab olunur. Bu yol, yüklərin daşınmasına sərf edilən vaxtı iki dəfədən çox qısaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

### Bakı-Tbilisi-Qars dəmir yolu Qarsdan Naxçıvana qədər uzadılacaq

Bakı-Tbilisi-Qars dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər-Bir yol" iqtisadi inkişaf strategiyası prizmasından nəzərdən keçirilir. İnamla deyə bilərik ki, bu dəmir yolu qitələrarası daşımalar üçün əlverişli imkanlar yaradır.

Onu da əlavə edək ki, artıq Türkiyənin Qars şəhəri ilə Naxçıvan Muxtar Respublikası arasında dəmir yolu xəttinin tikintisi üzrə işlər başlayıb. Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral bu günlərdə mətbuata verdiyi açıqlamada qeyd edib ki, bu istiqamətdə işlər Bakı-Tbilisi-Qars layihəsi çərçivəsində aparılır.

Belə ki, tikintisi yaxın iki ildə başa çatacağı gözlənilən bu layihəyə əsasən Bakı-Tbilisi-Qars dəmir yolu Qarsdan Naxçıvana qədər uzadılacaq. Bu, əlbəttə ki, həm Türkiyə, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edəcək.

### Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi

Nəqliyyat-tranzit xidmətlərinin təşkilində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı mühüm əhəmiyyət kəsb edir. May ayının 14-də açılış mərasimi keçirilən liman kompleksi bu gün Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirir.

Azərbaycanın "Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla, ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək, Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edir. Bu isə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəqlini təmin edən səmərəli və dayanıqlı logistik zəncir formalaşdırır.

Bir sözlə, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizi hövzəsində ən böyük liman kompleksi olmaqla, bölgənin əhəmiyyətli tranzit nöqtəsinə çevrilib.

*Ardı 4-cü səh.*

# Omanın Sultanı Əlahəzrət Qabus bin Səidə

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Latviya Respublikasının Prezidenti zati-aliləri cənab Raymonds Veyonisə

Hörmətli cənab Prezident!

Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan-Latviya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. İnanıram ki, ölkələrimiz arasındakı siyasi, iqtisadi və mədəni əlaqələr xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1110-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148) 4-cü maddəsinin II hissəsinə "təqsirləndirilən şəxsin müdafiəsi," sözlərindən sonra "məhkəmənin baxdığı inzibati xəta haqqında iş üzrə icraatda fiziki şəxsin müdafiəsi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# Azərbaycan ilə Belarus arasında xeyli sənəd imzalanacaq

Yaxın günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa səfəri olacaq. Səfər çərçivəsində xeyli sənədin imzalanması nəzərdə tutulur. Bu cür yüksək səviyyəli səfərlər ölkələrimiz arasında intensiv xarakter daşıyır.

AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə açıqlamasında Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev bildirib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, bu gün Azərbaycanla Belarus arasında münasibətlər siyasi, iqtisadi, ticari, hərbi-texniki, mədəni, humanitar və digər sahələri əhatə edir. İki ölkə arasında ticarət dövriyyəsi davamlı olaraq artır. Azərbaycan Prezidentinin Belarusa səfəri ölkələrimiz arasındakı əlaqələrin inkişafına daha güclü təkan verəcək. Dövlətimizin başçısı bu günlərdə Belarusun Azərbaycandakı səfirini qəbul edərkən bu məsələlər geniş şəkildə müzakirə olunub.

# Regionun neft ixracı arteriyası




**1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və ABŞ prezidentləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin tarixində həlledici rol oynayan mühüm sənəd imzaladılar.**

Bu, xam neftin BTC vasitəsilə Azərbaycanın, Gürcüstanın və Türkiyənin əraziləri ilə nəql edilməsinə dair saziş idi. Həmin saziş "Əsrin müqaviləsi"ndən sonra ikinci mühüm sənəd kimi Azərbaycan üçün böyük tarixi əhəmiyyət kəsb edirdi.

BTC-nin marşrutunu müəyyənləşdirən bu hadisədən bir il əvvəl, 1998-ci il oktyabrın 19-da kəmərin tikintisi ilə bağlı "Ankara bəyannaməsi" imzalanmışdı. Layihəyə yaşıl işıq yandıran növbəti, daha vacib bir sazişin imzalanması da ulu öndər Heydər Əliyevin siyasi uzaqgörənliyi və dünyadakı nüfuzu sayəsində mümkün olmuşdur.

Məlum olduğu kimi, Azərbaycan açıq dənizlərə çıxışı olmayan ölkədir. Ona görə də "Əsrin müqaviləsi" çərçivəsində çıxarılan nefti dünya bazarlarına nəql etmək üçün boru kəmərləri çəkilməli idi. 1999-cu ildə Azərbaycan neftini Bakı-Supsa marşrutu ilə daşıyan Qərb İxrac Boru Kəməri istifadəyə verildi. Bu, texniki cəhətdən çox mürəkkəb layihə idi və böyük maliyyə vəsaiti tələb edirdi. Lakin tikintinin müvəffəqiyyətlə başa çatdırılması göstərdi ki, Azərbaycan qısa müddətdə böyük işlər həyata keçirməyə qadirdir.

Bakı-Supsa kəməri ilk dəfə Xəzər dənizi ilə Qara dənizi "birləşdirdi". Bu həm də inam yaradırdı ki, Azərbaycan daha böyük layihələrə imza ata bilər.

*Ardı 3-cü səh.*



# Qubanın var alması

**Qubanın iqtisadiyyatında alma bu gün də xüsusi çəkiyə malikdir. Onun daha geniş sahələrdə becərilməsi ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrə təsadüf edir.**

Ümummilli liderin təşəbbüsü ilə hələ 1974-cü ildə "Meyvəçiliyin intensivləşdirilməsi və ixtisaslaşdırılması əsasında daha da inkişaf etdirilməsi tədbirləri haqqında" qərar qəbul edilmiş və bundan sonra ölkəmizdə bağçılıq təsərrüfatının inkişafında yeni mərhələ başlanmışdır. Həmin qərara əsasən, cəmisi bir neçə il ərzində Quba rayonunda 14 min hektarda, Qusar, Xaçmaz və Şəki rayonlarının hər birində 1000 hektar olmaqla, intensiv meyvə bağları salındı. Bu məqsədlə əsasən Macarıstan və Moldovadan respublikaya 20-yə qədər məhsuldar alma sortları gətirilmişdi.

*Ardı 6-cı səh.*

# Ölkəmiz neft statusunu dəyişir



**Ümumilikdə qeyri-neft sektoru və qeyri-neft sənayesinin inkişafı istiqamətində ölkəmizdə həyata keçirilən islahatlar, bu sahəyə verilən dövlət dəstəyi öz nəticəsini verir.**

Son statistikaya nəzər salaq: Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında qeyri-neft sektorunda istehsal əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz artıb. Eyni zamanda, sənayedə qeyri-dövlət sektorunun payı 82,8 faizə çatıb.

Sözsüz ki, qeyri-neft sənayesinin inkişafı üçün bu sahəyə yönəldilən kapital qoyuluşu vacib şərtdir. Azərbaycanda aparılan uğurlu siyasət sayəsində sənayenin bu sektoruna xarici və yerli mənbələrdən böyük məbləğdə sərmayə qoyulur. Bunun nəticəsidir ki, hər il ölkənin iri şəhərləri ilə yanaşı, regionlarda da daha çox kiçik, orta və iri qeyri-neft sənaye müəssisələri fəaliyyətə başlayır. Bunun sayəsində nəinki əvvəllər idxal etdiyimiz bir sıra məhsulların idxalı azalır, hətta ixracımız artır.

Prezident İlham Əliyev qeyri-neft sənayesinə kapital qoyuluşunun əhəmiyyətini qeyd edərək demişdir: "Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə, son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb. Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb. İnvestisiya təşviqi mexanizminin işə düşməsindən sonra icra edilən və nəzərdə tutulan layihələrin ümumi investisiya həcmi 2,7 milyard manatdır. Əgər biz bu sistemi tətbiq etməsəydik, heç kim gəlib bu vəsaiti Azərbaycana qoymazdı. Baxın, bu ciddi islahatların aparılması ilə təxminən 3 milyard manat investisiya cəlb etmişik, 20 min insan üçün isə iş yeri yaratmışıq".

*Ardı 5-ci səh.*

# "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 142; 2002, № 6, maddə 328; 2004, № 7, maddə 505; 2006, № 12, maddə 1033; 2007, № 1, maddə 4; 2010, № 5, maddə 386; 2011, № 2, maddə 71, № 12, maddə 1086; 2012, № 2, maddə 62; 2013, № 5, maddə 466, № 7, maddə 796; 2016, № 2, maddə 198; 2017, № 12 (I kitab), maddə 2264) aşağıdakı dəyişikliklər edilsin:

1. 3-cü maddənin ikinci hissəsinin dördüncü abzasında "gözlərinin rəngi," sözlərindən sonra "əl-barmaq izləri," sözləri əlavə edilsin.

2. 9.4-cü maddədə "vətəndaşa" sözü "vətəndaşdan əl-barmaq izləri götürülmür, habelə ona" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1304-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1304-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438) 243-cü maddəsinin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"fiziki şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər on beş min manatdan iyirmi min manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1301-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1301-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

# "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 92; 2001, № 11, maddə 683; 2004, № 2, maddə 57, № 10, maddə 761; 2007, № 10, maddə 938; 2009, № 12, maddə 948; 2014, № 10, maddə 1166; 2017, № 6, maddə 1025; 2018, № 4, maddə 643) aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı maddənin 5-ci hissəsinin ikinci abzasında "müvafiq icra hakimiyyəti orqanında" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda)" sözləri ilə əvəz edilsin.

2. 15.1.2-ci maddə ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1249-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1249-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 5-ci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

3.2. həmin qanunun 6-cı maddəsinin 5-ci hissəsinin ikinci abzasında "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur.

4. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 612-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 iyun tarixli 1451 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1067) 3-cü hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7, maddə 1425) aşağıdakı dəyişikliklər edilsin:

1. Preambulada "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrə" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarına (dövlət orqanlarının strukturuna daxil olan qurumlara)" sözləri ilə əvəz edilsin.

2. 2.0.2-ci maddədə "və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə" sözləri "və siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin.

3. 2.0.4-cü və 2.0.5-ci maddələrdən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri" sözləri çıxarılsın.

4. 2.0.6-cı, 3.2-ci və 3.4-cü maddələrdən "və ya Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə" sözləri çıxarılsın.

5. 6.1-ci maddədə "16" rəqəmləri "15" rəqəmləri ilə əvəz edilsin.

6. 11-ci maddə ləğv edilsin.

7. 12.1-ci maddədən "və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrin" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 oktyabr 2018-ci il*

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun tətbiqi və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1280-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.2-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən əlavə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarının (dövlət orqanlarının strukturuna daxil olan qurumların) siyahısı ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12, maddə 2294) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1.8-ci yarımbənd ləğv edilsin;

3.2. 5.1-ci bənddə "12.3-cü maddəsində" sözləri "2.0.2-ci və 12.3-cü maddələrində" sözləri ilə əvəz edilsin;

3.3. 5.2-ci bənddən "11.1-ci, 11.4-cü," sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441; Azərbaycan Respublikasının 2018-ci il 12 oktyabr tarixli 1272-VQD nömrəli Qanunu) 255-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Maddənin mətni 255.1-ci maddə hesab edilsin və sanksiyasında "üç min manatdan altı" sözləri "altı min manatdan on" sözləri ilə əvəz edilsin, "məhdudlaşdırılması" sözündən sonra "və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə" sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 255.2-ci maddə əlavə edilsin:

"255.2. Bu məcəllənin 255.1-ci maddəsində nəzərdə tutulmuş əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda -

cinayət nəticəsində vurulmuş ziyanın üç mislindən beş mislinədək miqdarda cərimə edilməklə və ya edilməməklə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1300-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1300-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Kəngərli, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771; № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190) 2-ci maddəsində “Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 95 illiyi (1919-2014)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” yubiley medalı;”.

**Maddə 2.** “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2018-ci il*

Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında xidməti vəzifələrini həyata keçirərkən yüksək nəticələr əldə edən, Azərbaycan Respublikasının milli maraqlarının daxili və xarici təhdidlərdən qorunmasında, kəşfiyyat və əks-kəşfiyyat fəaliyyətində, dövlət sirrinin mühafizəsində, cinayətkarlığa qarşı mübarizədə fərqlənən hərbi qulluqçular, mülki işçilər, veteranlar, habelə milli təhlükəsizliyin təmin olunmasında fəal iştirak edən, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının inkişafında xüsusi xidmətləri olan digər şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanları təltif edirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda “Azərbaycan Respublikası milli təhlükəsizlik orqanlarının 95 illiyi (1919-2014)” Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli Qanunu ilə təsdiq edilmişdir

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan, hər tərəfə şüalar saçan səkkizguşəli ulduz kompozisiyalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

Medalın ön tərəfində xarici və daxili çevrələrlə əhatə olunmuş lövhə yerləşir. Diametri 26 mm olan xarici çevrə ilə diametri 20 mm olan daxili çevrənin arasında yuxarı qövs boyunca həkk olunmuş “AZƏRBAYCAN RESPUBLİKASI” sözlərini hər iki tərəfdən tamamlayan iki ədəd səkkizguşəli ulduz vardır. Alt hissədə ortada palıd yarpaqları təsvir olunmuş, sol tərəfdə qövs boyunca aşağıdan yuxarıya doğru “1919”, sağ tərəfdə qövs boyunca yuxarıdan aşağıya doğru “2019” rəqəmləri, göy rəngli mərkəzi dairənin üzərində isə “DÖVLƏT TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ KƏŞFİYYAT ORQANLARI 100 İL” sözləri yazılmışdır. Səkkizguşəli ulduz və onun şüaları, çevrələrin konturları, palıd yarpaqları və bütün yazılar relyefli olmaqla qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfinin səthi hamardır, orta hissəsində “AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT TƏHLÜKƏSİZLİYİ VƏ XARİCİ KƏŞFİYYAT ORQANLARI 1919-2019” sözləri, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı lövhəyə ilgək və iki halqa vasitəsilə birləşdirilir. Lövhəyə üzərində kənarlardan mərkəzə doğru ardıcıl olaraq 4,25 mm enində mavi, 1,5 mm enində qızılı, 4,25 mm enində mavi zolaqlar, mərkəzdə isə 17 mm enində göy rəngli şaquli zolaq təsvir edilən xara lent çəkilmişdir. Xara lentin yuxarı hissəsinə üzərində ulduz, aypara və dalğalı lent təsvir olunan 40 mm x 5,5 mm ölçülü düzbucaqlı lövhə bərkidilmişdir. Ulduz, aypara və lent təsvirləri relyeflidir.

4.2. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**“Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı**




## “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1258-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1258-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1248-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddə 1243, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddə 1697) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə “adlarında” sözündən sonra “, 538-1.4 - 538.1.6” rəqəmləri əlavə edilsin;

3.2. 4.41-ci bənddən “və 538-1.4 - 538-1.6-cı” sözləri çıxarılsın;

3.3. aşağıdakı məzmunda 4.41-1-ci bənd əlavə edilsin:

“4.41-1. həmin məcəllənin 538-1.4 - 538.1.6-cı maddələrində “qurum” dedikdə “Azərbaycan Akkreditasiya Mərkəzi” publik hüquqi şəxs nəzərdə tutulur;”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1219-VQD, 1221-VQD, 1226-VQD nömrəli qanunları) 538-1.4-538-1.6-cı maddələrində “Müvafiq icra hakimiyyəti orqanı” sözləri “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

## “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1290-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində “müvafiq icra hakimiyyəti orqanları” dedikdə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti nəzərdə tutulur.

4. “Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəislərinə verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2018-ci il*

## Azərbaycan Milli Məclisi Sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə səfər edəcək

Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə parlament nümayəndə heyəti TÜRKPA-nın 8-ci plenar iclasında və qurumun 10 illik yubileyinə həsr olunmuş konfransda iştirak etmək üçün noyabrın 19-dan 21-dək Türkiyənin İzmir şəhərində səfərdə olacaq. AZƏRTAC xəbər verir ki, bu barədə Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu noyabrın 17-də keçirdiyi brifinqdə məlumat verib.

Akif Təvəkküloğlu deyib ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, deputatlardan Hikmət Məmmədov, Nizami Cəfərov, İlham Əliyev, Sevinc Hüseynova, Sədaqət Vəliyeva, Ağalar Vəliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildir.

Assambleya Şurasının 8-ci iclasında təşkilata sədrliyin Qırğızıstandan Türkiyəyə təhvil verilməsi mərasimi keçiriləcək. İclasda TÜRKPA Katibliyinin illik fəaliyyəti, 2019-2020-ci illər üzrə strateji planın təsdiqi, qurumun hüquqi bazasının təkmilləşdirilməsi, təşkilati məsələlər və s. müzakirə olunacaq. Sessiyanın sonunda İzmir Bəyannaməsi imzalanacaq.

Qurumun 10 illik yubileyi ilə əlaqədar “TÜRKPA-nın ilk 10 ili və parlamentlərarası əməkdaşlığın gələcəyi: əməkdaşlığa dair yeni yanaşmalar” mövzusunda keçiriləcək konfransda Milli Məclisin Sədri Oqtay Əsədov çıxış edəcək. Burada təşkilatın 10 illik yubileyi münasibətilə TÜRKPA Medalı ilə mükafatlandırma mərasimi də keçiriləcək. Səfər çərçivəsində Milli Məclis Sədrinin tədbirdə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bir sıra görüşləri gözlənilir.

19 il əvvəl İstanbul zirvə toplantısında BTC-nin marşrutunu müəyyənləşdirən sənəd imzalanmışdır

# Regionun neft ixracı arteriyası

*Əvvəli 1-ci səh.*

Zaman da məhz belə qlobal layihələrin gerçəkləşməsini tələb edirdi. Yəni, BTC-nin tikilməsi zərurəti “Əsrin müqaviləsi”nin real nəticələr verməsindən irəli gəlirdi. 1997-ci ilin noyabrında “Çıraq” platformasından ilkin neft alınmışdı. Qarşıda “Azəri”, “Dərinsulu Günəşli” yataqlarının işlənməsi dururdu və hasilatın ildən-ilə artacağı yəqin idi. Fəaliyyətdə olan Bakı-Novorossiysk və Bakı-Supsa ixrac sistemlərinin gücü isə getdikcə artan neft həcmlərini nəql etmək üçün kifayət deyildi. Odur ki, ulu öndər Heydər Əliyev hələ keçən əsrin 90-cı illərinin ortalarında özünün uzaqgörən qərarını vermişdi. Bu, BTC-nin tikilməsi ideyası idi.

Bu il mayın 29-da Səngəçal terminalında “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasimindəki nitqində Prezident İlham Əliyev BTC barədə demişdir: “2002-ci ildə biz artıq “Azəri-Çıraq” yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir”.

Kəmər istifadəyə verilərkən layihənin tərəfdaşları ona ulu öndər Heydər Əliyevin adının verilməsi təklifini irəli sürdülər və bu təşəbbüs yekdilliklə bəyənildi. BTC 12 ildən çoxdur Azərbaycan neftini dünya bazarlarına ahəngdar və təhlükəsiz şəkildə nəql edərək bu adı şərəflə daşıyır.

Təsadüfi deyil ki, bu boru kəməri regionda enerji ixracının başlıca arteriyası sayılır. Mühüm strateji obyekt kimi dəyərləndirilən BTC qapalı Xəzər hövzəsi və bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqədir. Kəmərin ixrac etdiyi neft bu ilin iyul ayınadək 3929 tankerə yüklənib və dünya bazarlarına yola salınıb. 3929-cu tankerə vurulan neft 3 milyardıncı barel olub.

Ötən illər ərzində BTC təkcə Azərbaycanın deyil, bütün regionun xeyir-bərəkət mənbəyinə çevrilib. Lakin onun əhəmiyyəti təkcə bununla bitmir. Qədim neft diyarı Azərbaycanın bu gün həm də qaz hasil və ixrac edən ölkə kimi şöhrəti artdıqca BTC daha böyük önəm kəsb edir. “Şahdəniz” qazını nəql edən Bakı-Tbilisi-Ərzurum kəmərinin Azərbaycandan və Gürcüstandan keçən hissəsi məhz BTC ilə bir dəhliz boyu çəkilib. Xəzərin sahilindən başlanan bu dəhliz Adriatik dənizinin altından keçərək İtaliya torpağına çatacaq. Başqa sözlə, Azərbaycan qazının dünya bazarlarına ixracı üçün yeni yollar çəkilir və bu yolların başlanğıcında dayanan BTC-dir.

Beləliklə, 19 il əvvəl ulu öndər Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində BTC qarşısında yandırılan yaşıl işıq uzun bir yola nur saçaraq böyük bir yüksəlişin başlanğıcı oldu. O vaxt yalnız BTC-nin marşrutu müəyyənləşdirilsə də, əslində, gələcəyə doğru nəhəng bir addım atılaraq neçə-neçə qlobal layihənin təməli qoyuldu.

***Flora SADIQLI,***
***“Azərbaycan”***




# Vətən sevgisinin zirvəsi

## *"Azərbaycan" qəzetində şəhid Elgün İsmayılovun xatirəsinə həsr edilən yaradıcılıq müsabiqəsinə yekun vuruldu*

Vətən sevgisi sevgilərin ən alisi, ən müqəddəsidir - deyirlər. Onun uğrunda canından keçən hər bir insan isə şəhiddir. Bu zirvəyə yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Belə şərəfli ömür sahiblərindən biri də 44-cü doğum günü onsuz keçirilən, şəhidliyinin 24 ili tamam olan Elgün Dağbəyi oğlu İsmayılovdur. Ömrünün 20-ci baharında Murovdağın zirvəsində şəhidlik məqamına yüksələn Elgün İsmayılovun əziz və unudulmaz xatirəsi yalnız dünyaya göz açdığı ailədə, oxuduğu məktəbdə deyil, həm də çalışdığı "Azərbaycan" qəzeti redaksiyasında daim anılır, ehtiramla yad edilir.

İşğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda hünər və qeyrətlərini silaha çevirib döyüşlərə yollanan igidlər sırasında əməlinin və hünərinin ucalığında dayanan Elgün də var idi. 1974-cü ildə Bakı şəhərində anadan olan, çalışdığı "Azərbaycan" qəzetində qısa müddət ərzində hamıya qaynayıb-qarışan, torpaqlarımızın mənfur ermənilər tərəfindən işğalına dözməyən Elgün 1993-cü ildə həqiqi hərbi xidmətə çağırıldı. Həmin ilin oktyabrında "N" saylı hərbi briqadanın tərkibində cəbhə bölgəsinə - Füzuli rayonuna göndərilən Elgün Horadizin düşməndən azad edilməsi uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə komandanlıq tərəfindən mükafatlandırıldı.

1994-cü ilin yanvarında hərbi briqadanın yeri Kəlbəcər bölgəsinə, Murovdağ istiqamətinə dəyişdirildi. Döyüşçü dostları Elgünü igid və qorxmaz əsgər kimi tanıyırdılar. Komandanlığın onun barəsində verdiyi arayışda göstərilir ki, Elgün İsmayılov mürəkkəb relyefə malik Murovdağda bölüyün keçirdiyi 20 əməliyyatdan 16-sında iştirak edib. 1994-cü il aprelin axırlarında keçirilmiş hərbi əməliyyata görə Elgün İsmayılov komandanlığın Fəxri fərmanına layiq görülür. Mayın 25-dən 26-na keçən gecə Murovun Ömər yüksəkliyində düşmən arxasına keçərək vacib məlumatları gətirməyə gedən 4 nəfərlik kəşfiyyat dəstəsinin tərkibində Elgün də var idi. Cəsur əsgər burada düşmən hücumuna məruz qalaraq qızğın döyüşlərdə şəhidlik zirvəsinə yüksəldi.

İş yoldaşları Elgünün xatirəsini hər zaman əziz tuturlar. Hər il doğum günündə redaksiya kollektivinin onun xatirəsinə həsr etdiyi tədbir İkinci Şəhidlər xiyabanındakı müqəddəs məzarını ziyarətlə başlayır. Bu il də Elgünün xatirəsi ona doğma olan kollektivi tərəfindən ehtiramla yad edildi. Şəhidin məzarı üzərinə tər çiçək dəstələri düzüldü və ruhuna dualar oxundu.

Sonra anım mərasimi redaksiyada davam etdirildi. Tədbiri "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov açaraq bildirdi ki, ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun güclü ordusu və əsgərinin vətənpərvərlik, döyüş ruhudur. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan Ordusunun hər bir əsgərinin döyüş əzmi, vətənpərvərlik ruhu ən yüksək səviyyədədir. Bu, son illərdə orduya göstərilən hərtərəfli diqqət və qayğının təcəssümüdür. Ən modern silah-sursat, hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bu il Bakıda keçirilən iki möhtəşəm hərbi paradla bir daha öz qüdrətini nümayiş etdirən Azərbaycan Silahlı Qüvvələrinin dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşması isə qürurvericidir.

Bəxtiyar Sadıqovun sözlərinə görə, hər zaman Ali Baş Komandan kimi səngərdəki əsgərin yanında olub doğma valideyn təki onun qayğısına qalan cənab İlham Əliyevin özü bu gün əsgər atasıdır. Prezident övladının müqəddəs əsgər libası geyinən sadə azərbaycanlı oğulları ilə çiyin-çiyinə dayanması milli ruhu yüksəldən bir hadisədir. Bu, bütün həyatını güclü dövlət qurmağa həsr edən bir liderin təkcə qanunlara ehtiramı yox, həm də xalqın sabahı ilə öz balalarının taleyini necə bir sırada gördüyünün əyani sübutudur. Ölkə rəhbərinin xarakterini də təyin etmək üçün örnək hadisəsidir. İndi səngərdəki hər bir Azərbaycan əsgəri əmindir ki, döyüş əmri verildikdə, onlar düşmənə qarşı Ali Baş Komandanın oğlu ilə çiyin-çiyinə savaşacaqlar.

"Şəhidlik zirvəsi hünər, qeyrət simvoludur, bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Hər birimiz Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda qəhrəmanlıqla mübarizə aparan, xalqımızın azadlığını hər şeydən uca tutan, bu yolda həyatlarını qurban verən igidlərin xatirəsini anmağa həmişə borcluyuq. Onlar hər zaman sonsuz ehtirama, sevgi və məhəbbətə layiqdirlər"- deyən baş redaktor vurğuladı ki, Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu bugünki gənclərimizə örnəkdir. Qarabağ döyüşlərində qəhrəmancasına şəhid olmuş Elgün İsmayılovun anadan olduğu gün isə onu tanıyanların hər biri üçün qürur doğuran tarixdir.

Şəhid Elgünün çox qısa, lakin mənalı həyat və döyüş yolundan, Azərbaycan dövlətinin müstəqillik tarixinin şərəfli və keşməkeşli olduğundan söz açan Bəxtiyar Sadıqov onu da xüsusi vurğuladı ki, 2003-cü ildən başlayaraq hər il redaksiyada Elgünün xatirəsinə həsr edilmiş ənənəvi yaradıcılıq müsabiqəsi keçirilir. Artıq 16-cı dəfə keçirilən müsabiqəyə təqdim olunan yazılar bir neçə aspektdən dəyərləndirilir. Eyni zamanda, müsabiqə həm də qəzet əməkdaşlarını vətənpərvərliyə, torpağa məhəbbət mövzusunda yazmağa ruhlandırır. "Azərbaycan" qəzetinin səhifələrində belə yazıların mütəmadi işıq üzü görməsini kollektiv də vacib sayır. Bu cür müsabiqələrin keçirilməsinin əhəmiyyəti həm də ondadır ki, burada yaradıcılığa geniş meydan verilir.

Şəhid Elgün İsmayılovun atası, əməkdar jurnalist Dağbəyi İsmayılov Vətən uğrunda canlarından keçən hər bir şəhidin şərəfli ömrünün örnək olmasını təbliğ edən qəzetin baş redaktoruna və kollektivinə ailəsi adından təşəkkürünü bildirdi. Şəhid atası dedi ki, Elgünün xatirəsinin ona doğma olan iş yoldaşları tərəfindən ehtiramla yad edilməsi və hər ad günündə məzarı üzərinə tər çiçək dəstələrinin düzülməsi, ruhuna duaların oxunması onu çox qürurlandırır. Bütün bunlar xalqımızın şəhidlərə göstərdiyi əbədi ehtiramın bariz nümunəsidir.

Sonra Bəxtiyar Sadıqov müsabiqənin nəticəsini elan etdi. Builki müsabiqənin yekunlarına görə redaksiyanın əməkdaşları - İradə Əliyeva, Rəşad Bəxşəliyev, Elçin Cəfərov və Sabir Əliyev qalib elan edildilər. Qaliblər "Azərbaycan" qəzetinin Fəxri diplomu və pul mükafatları ilə təltif olundular.

***"Azərbaycan"***

# Bakıda Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərlə bağlı beynəlxalq konfrans keçirilib




Noyabrın 17-də Bakıda "İşğal olunmuş Azərbaycan ərazilərində qeyri-qanuni fəaliyyətlər və üçüncü tərəflərin məsuliyyəti" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin (SAM) təşkilatçılığı ilə keçirilən konfransda Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərindəki qeyri-qanuni iqtisadi fəaliyyəti, təbii resursların qanunsuz şəkildə istismarı və bu kimi digər məsələlər yerli və xarici ekspertlər tərəfindən müzakirə edilib.

Konfransı açan SAM-ın direktoru Fərhad Məmmədov bildirib ki, işğal edilmiş Azərbaycan ərazilərində Ermənistan tərəfindən törədilən qanunazidd əməllər həmin əraziləri narkotiklərin qanunsuz dövriyyəsi və hətta terrorizm fəaliyyətinin mərkəzinə çevirib. Ermənistanın həyata keçirdiyi qeyri-qanuni fəaliyyət qonşu ölkələrin sabitliyini pozmaqla yanaşı, regional sülhə qarşı da açıq təhdid təşkil edir.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev konfransda çıxış edərək Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətə və həmin ərazilərdə beynəlxalq hüququn imperativ normalarının pozulması faktlarına diqqət çəkib, bu bölgələrin qanunsuz mal dövriyyəsi üçün tranzit məntəqəsinə çevrildiyini vurğulayıb. O qeyd edib ki, bu qeyri-qanuni fəaliyyətlər məqsədyönlü və qərəzli xarakter daşıyaraq işğal olunmuş ərazilərin ilhaqı məqsədini güdür. Azərbaycanın işğal olunmuş ərazilərində aparılan qeyri-qanuni fəaliyyətlər, nəticə etibarilə, münaqişənin həllində çox ciddi problemlər yaradır və Ermənistanın da əsl məqsədi bundan ibarətdir.

Bildirilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlərə baxsaq, burada bir neçə istiqaməti təsbit edə bilərik. Ən vacib problemlərdən biri ondan ibarətdir ki, işğal olunmuş ərazilərimizdə məqsədyönlü məskunlaşma siyasəti aparılır, yəni, demoqrafik vəziyyət məqsədyönlü şəkildə dəyişdirilir. Bundan başqa, Azərbaycanın işğal olunmuş ərazilərində təbii sərvətlərin, xüsusilə də mineral resursların talan edilməsi, qeyri-qanuni iqtisadi fəaliyyətlərin həyata keçirilməsi və çirkli pulların yuyulması faktları da qeyd edilməlidir. Digər qeyri-qanuni fəaliyyətlər Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişiklikləri, o cümlədən ölkəmizin telekommunikasiya şəbəkələrinin istismar edilməsi və qanunsuz telekommunikasiya fəaliyyətinin göstərilməsi, işğal altındakı ərazilərimizin mədəni xarakterinin dəyişdirilməsi, Azərbaycan xalqına məxsus maddi-mədəni irsin talan edilməsi, dağıdılması, həmçinin mövcud maddi-mədəni, o cümlədən dini abidələrin memarlıq xüsusiyyətlərinin dəyişdirilməsi və onların erməniləşdirilməsi siyasətinin aparılmasıdır. Qeyri-qanuni fəaliyyətlərdən biri də işğal olunmuş ərazilərimizin turizm məkanı kimi təşviq edilməsi və oraya qeyri-qanuni səfərlərin həyata keçirilməsidir. Ermənistanın işğal və təcavüzü nəticəsində yaradılmış qondarma rejimi təşviq etmək və onun legitimləşdirilməsi kimi məqsədlər də güdülür.

Daha sonra italiyalı diplomat və ATƏM-in (hazırkı ATƏT) Minsk konfransının ilk sədri Mario Raffaelli Minsk qrupunun 25 ildən sonrakı fəaliyyətinə nəzər salaraq, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra sürətli inkişafa nail olaraq etibarlı regional tərəfdaşa çevrildiyini xatırladıb.

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov qeyd edib ki, statistik məlumatlara əsasən, Dağlıq Qarabağ ərazisində qeyri-qanuni şəkildə hasil edilən qiymətli metal və daşların istehsalat həcmi 2014-cü illə müqayisədə 2017-ci ildə 1,8 dəfə artıb. Bu baxımdan təsadüfi deyil ki, Ermənistan rəsmilərinin açıqladığı məlumatlara görə, istər Qarabağı işğal etmiş erməni hərbi qüvvələrinin, istərsə də Ermənistan Respublikasının büdcə gəlirlərinin böyük bir həcmini mədən sənayesindən, xüsusilə qeyri-qanuni hasilat fəaliyyətindən əldə edilən gəlirlər və vergilər təşkil edir.

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev Ermənistan tərəfinin işğal altındakı ərazilərin torpaq və bitki örtüyünü deqradasiyaya məruz qoymasını, qanunsuz şəkildə kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olaraq həmin ərazilərdə tikililər ucaltmasını peyk vasitəsilə əldə edilmiş görüntü və xəritələr əsasında iştirakçıların diqqətinə çatdırıb. Bildirib ki, peyk vasitəsilə əldə edilmiş görüntülərdən də müşahidə edilib ki, işğal altında olan ərazilərdəki tarixi abidələr dağıdılıb, həmin ərazilərdə yanğınlar törədilib. Statistik məlumata görə, ermənilər 2015-ci ildə 728 kvadratkilometr, 2018-ci ildə isə 480 kvadratkilometr ərazidə yanğınlar törədiblər. İşğal altında olan ərazilərdəki meşə massivinin beş faizi bu il məhv edilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva bildirib ki, Azərbaycan qanunvericiliyinə görə, ölkə ərazisində yalnız dövlət qeydiyyatından keçən şəxslər və şirkətlər biznes fəaliyyəti ilə məşğul ola bilərlər. Amma bəzi xarici şirkətlər var ki, qanunsuz olaraq dövlət sərhədlərimizi pozaraq işğal olunmuş ərazilərimizdə fəaliyyət göstərirlər. Həmin şirkətlər təbii ehtiyatlarımızı qanunsuz istismar edərək ekoloji tarazlığı pozurlar. Bundan başqa, Ermənistan qeyri-qanuni yolla Yaxın Şərqdən, xüsusilə də Suriyadan işğal altındakı ərazilərimizə köç həyata keçirir.

Baş Prokurorluğun idarə rəisinin müavini Vüqar Nəsibov deyib ki, "AzerGold" QSC-nin İdarə Heyəti tərəfindən təqdim edilən materiallar üzrə aparılan araşdırmadan məlum olub ki, Ermənistanda və digər xarici ölkələrdə qeydiyyatdan keçmiş "Vallex Yeroup", "Base Metals", "Lerna" Metallurgiya İnstitutu və digər xarici şirkətlərin rəhbərləri dəfələrlə Azərbaycan Respublikasının sərhədlərini qanunsuz keçərək Kəlbəcər, Zəngilan rayonlarındakı qızıl yataqlarının istismarı ilə məşğul olublar. Fakt üzrə Azərbaycan Respublikası Prokurorluğu tərəfindən cinayət işi qaldırılıb. Bundan başqa, işğalçılar tərəfindən əlavə metallar, tikinti materialları, mineral ehtiyatlar və nadir bitki örtüyü qanunsuz olaraq ölkədən çıxarılıb və məhv edilib.

Sonra SAM-ın iqtisadiyyatın təhlili şöbəsinin aparıcı elmi işçisi Mahir Hümbətov Mərkəz tərəfindən yaxınlarda Litvada nəşr edilən və Ermənistanın qanunsuz fəaliyyətlərinin hidroloji və ekoloji aspektlərinə aydınlıq gətirən "Dünyaya təhdid: Hidroloji cinayət və ekoloji soyqırımı" kitabına dair qısaca məlumat verərək, Ermənistanın birbaşa region ölkələrinə, lakin dolayısı ilə bütün dünyaya qarşı ekoloji təhlükə kəsb etdiyini bildirib. O, qeyd edilən məqamların ingilis dilində nəşr edilən kitabda əksini tapdığını söyləyib.

Konfrans sual-cavab sessiyası ilə başa çatıb.

# Azərbaycan Asiya ilə Avropa arasında logistik əlaqə yaradır

*Əvvəli 1-ci səh.*

### Genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatı

Ölkəmiz həmçinin Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə və Avropa dövlətlərini birləşdirən "Şərq-Qərb", həmçinin Pakistan, Hindistan, İran, Azərbaycan, Rusiya, Şimali Avropa ölkələrini qovuşduran "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin iştirakçısıdır.

Ümumiyyətlə, bu nəqliyyat dəhlizlərində iştirak edən ölkələrin sayına, onların gücünə baxsaq, görərik ki, bu, doğrudan da genişmiqyaslı beynəlxalq əməkdaşlıq formatıdır. "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin fəaliyyəti daha da genişlənib. Keçən illə müqayisədə cari ildə bu dəhliz vasitəsilə 100 dəfədən çox həcmdə yük daşınıb.

Prezident İlham Əliyev Azərbaycanın bu istiqamətdəki uğurlarını dəyərləndirərkən vurğulayıb ki, bu nəqliyyat bağlılığı, eyni zamanda, mehriban qonşuluğa da gözəl şərait yaradır. Heç bir ölkə, əgər qonşularla yaxşı münasibətləri yoxdursa, heç vaxt etibarlı tranzit məntəqəsinə çevrilə bilməz. Ona görə Azərbaycanın enerji, nəqliyyat, infrastruktur layihələri ölkələr arasındakı əməkdaşlığı stimullaşdırır.

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında İlham Əliyevin dediyi kimi, regionda baş verən hadisələr, Azərbaycanın təşəbbüsü ilə icra edilən nəhəng nəqliyyat layihələri, digər sahələrdə aparılan işlər ölkəmizin siyasi çəkisini böyük dərəcədə artırıb. Bu gün Azərbaycan yüksək beynəlxalq nüfuza malik olan ölkəyə çevrilib. Cənubi Qafqazın ən böyük və ən perspektivli dövləti sayılan Azərbaycan regionda gedən əsas proseslərin və transmilli maraqların mərkəzində dayanmaqla geoiqtisadi cəhətdən dünyanın aparıcı dövlətləri, böyük şirkətləri üçün cəlbedici tərəfdaş hesab olunur.

### Azərbaycan güclü logistika platformasına malik olacaq

"Azərbaycanda logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də bildirilir ki, 2025-ci ilə qədər ölkənin əhəmiyyətli



logistika və ticarət qovşağına çevrilməsi üçün regional miqyasda fəaliyyət göstərən şirkətlərin ölkədə bazalarının yaradılması üzrə işlər görüləcək.

Sənədə əsasən, logistika və ticarət sahəsində güclü inkişafın təmin edilməsi yolu ilə Azərbaycan regional şirkətlər üçün logistika və ticarət mərkəzinə çevriləcək. Eyni zamanda, logistika və ticarət sahəsində yüksək imkanlara malik müəssisələrin potensialı diqqətlə qiymətləndirilərək, özəl sektorun bu sahəyə cəlb olunması istiqamətində işlər davam etdiriləcək. 2025-ci ilədək ölkə Ələt qəsəbəsində yaradılmış yeni Bakı limanının ərazisi daxil olmaqla azad ticarət zonasının üstünlüklərindən faydalanan güclü logistika platformasına malik olacaq.

Qlobal dəyər zəncirindən daha çox pay əldə etmək məqsədilə "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizləri ilə beynəlxalq ticarət həcmində artıma nail olmaq üçün səy göstəriləcək. Bundan başqa, sənəddə qeyd olunur ki, Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Heydər Əliyev Beynəlxalq Hava Limanına və ölkənin daxili ticarət şəbəkəsinə çevik inteqrasiyasını təmin etməkdən ötrü avtomobil və dəmir yolu əlaqələri gücləndiriləcək.

### 2019-cu ildə nəqliyyat infrastrukturu daha da təkmilləşdiriləcək

Bu il olduğu kimi, 2019-cu ildə də tranzit və nəqliyyat xidmətlərinin inkişafı, həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən olacaq.

Öncə onu qeyd edək ki, 2018-ci ilin büdcəsində dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan 4.824.2 milyon manat vəsaitin sifarişçi təşkilatlar və obyektlər üzrə bölgüsündə infrastruktur layihələrinə 3.435.5 milyon manat vəsait ayrılıb. Bu vəsaitin 1.549.3 milyon manatının nəqliyyat layihələrinə yönəldilməsi bu sahənin prioritetliyinin göstəricisidir.

Gələn ilin dövlət büdcəsi layihəsində də göstərilir ki, ölkəmizin logistika və nəqliyyat mərkəzi kimi mövqeyinin gücləndirilməsi və ölkədə çoxşaxəli nəqliyyat infrastrukturunun yaradılması məqsədi ilə, habelə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi nəticəsində artan yük həcmlərinin qarşılanması üçün ardıcıl tədbirlərin görülməsi nəzərdə tutulur. Bundan başqa, yaxın illərdə "Şimal-Cənub Nəqliyyat Dəhlizi"nin yerüstü marşrutunun mərkəzində yerləşən və əsas birləşdirici rol oynayan Astara (Azərbaycan)-Astara (İran)-Rəşt-Qəzvin dəmir yolu xəttinin inşa edilərək istifadəyə verilməsi yüklərin və sərnişinlərin Mərkəzi və Şimali Avropadan Azərbaycanın ərazisindən keçməklə Fars körfəzi, Hind okeanı regionlarına tez bir zamanda çatdırılmasını təmin edəcək. Həmçinin ölkənin əlverişli məkanlarında azad iqtisadi zonaların, yaxın gələcəkdə isə Heydər Əliyev Beynəlxalq Aeroportu ərazisində logistika qovşağının ("hub") yaradılması məsələlərinə baxılacaq.

Bütün bunlar əlbəttə ki, Azərbaycanın regionda beynəlxalq nəqliyyat dəhlizləri üzərində mühüm ticarət, tranzit mərkəzinə çevriləcəyini bir daha təsdiqləyir. Azərbaycan Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilərək yeni təşəbbüslər irəli sürməkdə davam edir. İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə də etibarlı təminat verir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mikayıl CABBAROV: «Vergi siyasəti iqtisadiyyatın dəyişən tələblərinə, onun artan gücünə adekvat olaraq təkmilləşdirilir»

Vergilər naziri Mikayıl Cabbarov Azərbaycanda həyata keçirilən vergi siyasətinin əsas istiqamətlərini, vergi qanunvericiliyində gözlənilən dəyişiklikləri, dövlət-biznes münasibətlərini, vergi orqanlarının yeni iş prinsiplərini, həyata keçirilən islahatları və ilkin nəticələri şərh edib. AZƏRTAC nazirin şərhlərini təqdim edir.

Mikayıl Cabbarov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin tərkib hissəsi olan vergi siyasətinin daim iqtisadiyyatın dəyişən tələblərinə, onun artan gücünə adekvat təkmilləşdirildiyini söyləyib. Bildirib ki, Vergilər Nazirliyinin fəaliyyətinin məhz bu tələblərə uyğun qurulması, həyata keçirilən vergi siyasətinin və vergi inzibatçılığının tətbiqi zamanı vergiödəyiciləri ilə dövlət arasında yeni mədəniyyətin sürətlə formalaşdırılması hazırda vergi orqanlarının qarşısında duran əsas vəzifələrdir.

2018-ci ili vergiödəyiciləri ilə münasibətlərdə keçid ili adlandıran vergilər naziri qeyd edib ki, cari ildə cəmiyyətin inkişaf amili ilə şərtləndirilən və aparıcı dünya praktikası ilə uzlaşdırılan yeni bir vergi sisteminə keçid istiqamətində müvafiq addımlar atılıb. Bu prosesin ölkədə sürətlə gedən iqtisadi artıma, oturuşmuş biznes vərdişlərinə və işgüzar mühitə xələl gətirmədən həyata keçirilməsi üçün müvafiq tədbirlər həm inzibatçılıq mədəniyyəti, həm də qanunvericilikdə müvafiq dəyişikliklər vasitəsilə tətbiq olunub: "Sahibkarlıq subyektində aparılan istənilən yoxlama, o cümlədən vergi yoxlamaları istər-istəməz onun fəaliyyətinə müəyyən təsir edir. Sahibkar öz işi, biznesi ilə məşğul olmaq əvəzinə, vaxtını dövlət məmurları ilə ünsiyyətə sərf edir. Buna görə də ötən dövr ərzində vergi orqanları tərəfindən aparılan vergi yoxlamalarının sayı üç dəfə azaldılıb".

Nazir bildirib ki, bir çox sahələrdə vergi pozuntuları, xüsusilə uçotun düzgün şəkildə aparılmaması və yaxud ümumiyyətlə, aparılmaması, qeyri-rəsmi məşğulluğun mövcudluğu, dövriyyələrin azaldılması kimi hallara rast gəlinir. Ticarət, yaxud ictimai iaşə obyektləri göstərdiyi xidmətin, satdığı malın uçotunun nəzarət-kassa aparatında əks etdirilməsini adətən, zəruri saymır. Təəssüflər olsun ki, analoji hallar orta və böyük vergiödəyicilərində, hətta istehsal müəssisələrində də özünü göstərir.

Vergilər Nazirliyinin praktikası və yanaşması imkan verir ki, bir çox yayınma halları nazirliyin texnoloji informasiya bazasının təkmilləşdirilməsi və zənginləşdirilməsi nəticəsində əldə edilmiş məlumatların təhlili vasitəsilə, yoxlamaya getmədən, subyektivlik amilini aradan qaldırmaq və insan amilinin rolunu minimuma endirməklə aşkara çıxarılsın.

Vergi sistemində aparılan struktur islahatları barədə danışan nazir bu islahatların fəlsəfəsinin vergi orqanlarının əsas funksiyasının fiskal nəzarətdən vergiödəyicilərinə xidmət prinsipinə keçirilməsi olduğunu bildirib. Vurğulanıb ki, vergiləri tam həcmdə və vaxtında ödəmək hər bir vergiödəyicisinin və vətəndaşın fəxr və fərəh hissi ilə həyata keçirdiyi öhdəlik olmalıdır. Vergilər dövlət büdcəsinin əsas gəlir mənbələrindən birini təşkil edir və dövlətin maliyyə ehtiyaclarının böyük hissəsi - müəllimin əməkhaqqından tutmuş, yanğınsöndürənlərin məsrəflərinə, planlaşdırılmış yol tikintisinə qədər yönələn bütün vəsaitlər vergilər hesabına formalaşır. Vergilərin ödənilməsi sahəsində bütün müvafiq güzəştlər və onların tətbiq dairəsi qanunla müəyyənləşib. Qanunlardan kənar nə vergi orqanı, nə də hər hansı vergi işçisi tərəfindən əlavə güzəştlərin edilməsinə, eləcə də öhdəliklərin tam yerinə yetirilməməsi və digər neqativ hallara heç bir vəchlə yol verilə bilməz.

Biznes mühiti və biznesin aparılmasının asanlığına toxunan vergilər naziri Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın islahatçı ölkə kimi dəyərləndirilməsini çox böyük nailiyyət adlandırıb: "Bu uğur dövlət başçısının rəhbərliyi altında biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması istiqamətində sistemli şəkildə aparılan işlərin məntiqi nəticəsidir". Nazir qeyd edib ki, bununla artıq ikinci dəfədir Azərbaycan "Doing Business" hesabatında ən islahatçı ölkə adını qazanır. Bu, ilk dəfə 2008-ci ildə baş vermişdi. Azərbaycanın 10 il sonra yenidən ən islahatçı ölkə kimi dəyərləndirilməsi onu göstərir ki, aparılan islahatlar sistemli xarakter daşıyır və proseslər bütünlüklə dövlət başçısının diqqət mərkəzindədir. Hesabatda Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı meyarlara toxunan nazir ölkəmizin "biznesə başlama" meyarı üzrə dünyada 9-cu, "vergilərin ödənişi" meyarı üzrə isə 28-ci yerdə qərarlaşdığını bildirib. Onun sözlərinə görə, Azərbaycanda biznesə başlama prosesi çox sadədir, şəffafdır və qısa müddət ərzində həyata keçirilə bilən prosesdir. Bu gün istənilən vətəndaş, yaxud hüquqi şəxslər yeni biznesi "elektron imza" vasitəsilə bir neçə günə, bəzi hallarda bir neçə saata qeydiyyatdan keçirə bilirlər.

Qeyd edilib ki, Vergilər Nazirliyinin fəaliyyətində rəqəmsallaşma və elektron xidmətlərin tətbiqinin genişləndirilməsi bundan sonra da prioritet istiqamət olaraq qalacaq. Növbəti illərdə elektron xidmətlərin sayının genişləndirilməsi, bu xidmətlərin mobil cihazlar vasitəsilə əldə edilməsi imkanlarının yaradılması, Vergilər Nazirliyinin veb-portalının funksionallığının genişləndirilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə zəruri işlər həyata keçirilir.

Vergilər Nazirliyinin vergiödəyicilərinə göstərdiyi xidmətlər barədə danışan Mikayıl Cabbarov bu gün biznes iştirakçılarına istiqamətlənmiş geniş çeşiddə vergi xidməti növlərinin mövcud olduğunu vurğulayıb. Respublikamızda vergiödəyicilərinin 90 faizindən çoxunun hesabat və bəyannamələrini elektron şəkildə təqdim etdiyini bildirən nazir bunu çox yüksək göstərici adlandırıb. Rəqəmsallaşmanın təkcə vergiödəyicilərinə göstərilən xidmətlərə deyil, eyni zamanda, təhlillərin və auditin aparılması, kameral yoxlamaların həyata keçirilməsi prosesində də tətbiq ediləcəyini, bu prosesin süni intellekt üzərində qurulan proqramlardan, müasir informasiya texnologiyalarından istifadə etməklə tətbiq olunacağını bildirib.

"Kölgə iqtisadiyyatı"nın miqyaslarının azaldılması, iqtisadiyyatın şəffaflaşdırılması məsələləri barədə danışan M.Cabbarov bu məsələnin bütün dünya ölkələri üçün böyük problem olduğunu və həlli yollarının axtarıldığını diqqətə çatdırıb. "İstənilən iqtisadi fəaliyyət ədalətlilik, bərabərlik və təxmin edilən vergitutma prinsipləri ilə tənzimlənməlidir. Qanunların tələblərinə əməl etməyən sahibkarlar intizamlı vergiödəyiciləri arasında haqsız rəqabət yaranıb. Bu rəqabətdə dövlət hər zaman məhz sonuncunun yanında olacaq" - deyə vergilər naziri bildirib.

Vurğulanıb ki, bir çox hallarda insanlar özləri də bilmədən "kölgə iqtisadiyyatı"nın iştirakçısına çevrilirlər. Məsələn, vətəndaş aksizsiz malları əldə edərkən, işçi kimi əmək müqaviləsi bağlamadan çalışarkən, alıcı kimi istənilən mağazada və yaxud iaşə obyektində kassa çekini almamaqla "kölgə iqtisadiyyatı"nın iştirakçısı olur.

Bildirilib ki, pərakəndə ticarətlə bağlı rəsmi statistik məlumatları və vergi məqsədləri üçün vergiödəyiciləri tərəfindən təqdim edilən bəyannamələri təhlil və müqayisə edərkən bu iki göstərici arasında xeyli fərqin olduğu görünür. Bununla yanaşı, iqtisadiyyatda olan yüksək nağdlaşma, nağd pulun dövriyyəsi, ümumi daxili məhsulda əməkhaqqının nisbətinin aşağı olması və bir sıra digər makromeyarlar "kölgə iqtisadiyyatı"nın miqyaslarını əyani göstərir.

Müxtəlif beynəlxalq təşkilatlar və ölkəmizdə fəaliyyət göstərən aidiyyəti qurumlar tərəfindən "kölgə iqtisadiyyatı"nın həcminin ölçülməsinə cəhdlər göstərilir. Nəticə tətbiq edilən metodologiyalardan asılı olaraq fərqli ola bilər. Aydın olan budur ki, problemin çözülməsi üçün sistemli tədbirlər həyata keçirilməlidir. Burada bir tərəfdən qanunvericilik əsasında "kölgədən çıxış" təşviq edən alətlərdən istifadə edilməli, digər tərəfdən nəzarət və cəza alətləri tətbiq olunmalı, sanksiya mexanizmləri gücləndirilməlidir. Bir çox hallarda hətta dövlət tərəfindən güzəşt verilən sahələrdə də "kölgə iqtisadiyyatı"nın əlamətləri - dövriyyədən yayınma, üçüncü şəxslərə vergidən yayınmaq üçün şərait yaradılması kimi xoşagəlməz hallara rast gəlinir.

Nazir belə hallara qarşı sistemli mübarizə aparıldığını bildirərək deyib: "Vergilər Nazirliyi tərəfindən 2018-ci ildə müəyyən istehsal sahələrində, məsələn, insan sağlamlığına mənfi təsir edən tütün məmulatları və alkoqollu içkilər sahəsində ciddi tədbirlər həyata keçirilib. Əgər ilin əvvəlində daxili bazarda qaçaqmalçılıq yolu ilə gətirilən tütün məmulatlarının həcmi 16-18 faiz təşkil edirdisə, görülən tədbirlər nəticəsində bu gün həmin rəqəm 3,5 faiz ətrafındadır. Bu, bir çox aparıcı Avropa dövlətləri, həmçinin Rusiya və Qazaxıstanla müqayisədə çox aşağı göstəricidir. Qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən məhsullar "kölgə iqtisadiyyatı"nda dövr edir, dövlətə çatan vergilər, aksiz ödənişləri həyata keçirilmirdi. Bundan itirənlər isə dövlət büdcəsi və fəaliyyətini qanunlar çərçivəsində qurmaq istəyən ödəyicilər olurlar. Yaxud aparılan araşdırmalar zamanı alkoqollu içkilər istehsalının həcminin kəskin şəkildə azaldıldığı, real istehsal dövriyyələrinin göstərilmədiyi müəyyən edilmişdi. Bu fərq çox böyük idi. Nəticədə bu ilin ikinci yarısından vergi orqanları tərəfindən həmin müəssisələrdə daimi aksiz nəzarət postları quraşdırıldı. Bu postların fəaliyyəti göstərdi ki, alkoqollu içki istehsalının həcmi 3,5 dəfə azaldılırdı. Burada bir neçə məsələ var idi: aksizin alınmaması hesabına dövlətin vergisinin ödənilməməsi, qanunsuz malların ticarət obyektlərində satılması nəticəsində cinayətkar şəbəkələrin yaranması və s. Bu prosesin hər halqasında istehsalçının öz məsuliyyəti, satıcının öz vergi məsuliyyəti var idi. Görülən tədbirlərlə bütün bunların qarşısı alındı".

Vergilər naziri bildirib ki, 2018-ci il keçid ili olduğuna görə bu kimi hallara dövlət tərəfindən kifayət qədər humanizm nümayiş etdirilib. Cəzaların əksəriyyəti baş verən pozuntuların aradan qaldırılması və maliyyə sanksiyalarının ödənilməsi ilə məhdudlaşıb. Xarakter etibarilə kütləvi təşkil edilmiş və ciddi cinayət əlaməti olan hallar istisna olmaqla, qalan bütün hallarda müvafiq səlahiyyətlər çərçivəsində güzəştli addımlar atılıb.

M.Cabbarov qeyd edib ki, yeni vergi mədəniyyətindən, "kölgədən çıxış"dan danışarkən, heç kim bu yolun birtərəfli olduğunu düşünməməlidir: "Dövlətin hər zaman güzəştə gedəcəyini düşünmək düzgün deyil. Dövlət vəziyyətin sabitləşməsi və sivilləşməsi istiqamətində daim öz işini görməlidir. Vergi inzibatçısı vergi ödənişini təmin etməli, dövlət orqanları fəaliyyətini dövlətin mənafeyinə uyğun qurmalı, vergiödəyicisi də fəaliyyətini qanunlar çərçivəsində aparmalı və haqqını tələb etməlidir".

Rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsinin vacibliyinə də toxunan nazir qeyd edib ki, əsas məqsəd nağdsız hesablaşmalar sistemini gücləndirməkdir. Ölkə Prezidentinin rəqəmsal ticarətin coğrafiyasının genişləndirilməsi ilə bağlı çox önəmli bir sənəd imzaladığını bildirən M.Cabbarov bunun "kölgə iqtisadiyyatı" ilə mübarizəyə hesablanmış əhəmiyyətli addım olduğunu vurğulayıb. Nağdsız ödənişlərin stimullaşdırılması üçün dövlət tərəfindən təşviqin verilməsi barədə danışan nazir vergi qanunvericiliyinə dəyişikliklərlə bağlı verilmiş təkliflər arasında belə bir mexanizmin olduğunu vurğulayıb. Belə ki, pərakəndə ticarət sahəsində nağdsız ödənişlər edən vətəndaşlar üçün vergi güzəştləri nəzərdə tutulur.

Məlumat verilib ki, 2019-cu ildən başlayaraq onlayn nəzarət kassa aparatları tətbiq ediləcək. Bu yenilik nəticəsində pərakəndə ticarət və xidmət sektorunda baş verən istənilən ödənişin həmin anda onlayn sistemdə əks etdirilməsi və yüklənməsi aparılacaq ki, bu da nəticə etibarilə hər hansı pozuntuların, dövriyyələrin gizlədilməsi kimi halları mümkünsüz edəcək. Bu həm də vətəndaşların hüquqlarının qorunmasına, büdcə vəsaitlərinin ödənişinin təmin edilməsinə yönəlmiş bir addımdır.

Vergi Məcəlləsinə təklif edilmiş dəyişikliklər barədə danışan M.Cabbarov ən əhəmiyyətli yenilik kimi qeyri-neft və özəl sektorda çalışan vətəndaşların əməkhaqlarından tutulan vergilərin mövcud faiz dərəcələrinin azaldılmasını qeyd edib: "Təqdim olunan layihədə bir neçə əsas dəyişiklik nəzərdə tutulur. Onlardan biri vergiyə cəlb olunan məbləğin həcminin dəyişdirilməsi ilə bağlıdır. Aylıq əməkhaqqı 8000 manata qədər olan vətəndaşlar üçün gəlir vergisi üzrə 100 faizlik güzəşt, 8000-dən yuxarı olan məbləğdə fiziki şəxslərin gəlir vergisinin 14 faiz həcmində müəyyənləşdirilməsi təklif edilir. Dövlət bu məsələdə çox böyük güzəştə gedir. Faktiki olaraq, qeyri-neft sektorunun inkişafı və ona dəstək üçün ötən illər ərzində edilən güzəştlərə əlavə olaraq belə bir vacib addımın da atılması nəzərdə tutulur".

Vergilər naziri vurğulayıb ki, əməkhaqqı ilə bağlı olan iki ödəniş növü var: bunlar fiziki şəxslərin gəlir vergisi və sosial sığorta ödənişləridir. Bu ödənişlərin vahid inzibatçılığının həyata keçirilməsi təklif edilir. Bu da öz növbəsində, işəgötürənlər üçün həmin prosesin xeyli sadələşdirilməsi deməkdir. Dövlət bu islahata getməklə öz gəlirlərinin müəyyən hissəsini itirir. Lakin bu islahatın həyata keçirilməsi ilə "kölgə iqtisadiyyatı"nın həcminin azalması, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması, iqtisadi fəallığın xüsusilə qeyri-neft sektorunun özəl bölməsində daha da canlanması və sürətləndirilməsi, vətəndaşların hüquqlarının daha dolğun şəkildə təmin edilməsi gözlənilir: "Bu, çox əhəmiyyətli, köklü bir dəyişiklikdir və faktiki olaraq qeyri-neft, qeyri-dövlət sektorunda çalışan hər bir işçini əhatə edəcək. İqtisadi cəlbediciliyini təmin etmək məqsədilə bu güzəştin uzunmüddətli tətbiq edilməsi nəzərdə tutulur. Hazırda verilmiş təkliflərə görə, güzəştin 7 il müddətinə tətbiqi planlaşdırılır. Əslində, bu, dövlət başçısı tərəfindən bu sahədə çalışan vətəndaşlara və iş adamlarına çox böyük güzəştdir. Belə bir ciddi güzəştin təqdim edilməsi ən yüksək siyasi səviyyədə qərar tələb edən bir layihədir. Məhz buna görə də inanırıq ki, Azərbaycan sahibkarları və vətəndaşları bu güzəşti düzgün qiymətləndirərək, dövlətin təklifinə adekvat olaraq vergidən yayınmamaq, qeyri-rəsmi məşğulluğu aradan qaldırmaq, işləyən vətəndaşın hüququnu təmin etmək, ödənilən əməkhaqqını olduğu kimi göstərmək kimi addımlarla cavab verəcəklər".

Nazir vergi qanunvericiliyində mühüm dəyişikliklərdən biri kimi, gələn ildən sadələşdirilmiş verginin dərəcəsinin aşağı salınmasına dair təklifi də diqqətə çatdırıb. Bildirib ki, sadələşdirilmiş vergi haqqında danışanda iki məqam qeyd edilməlidir. Birincisi və ən əsası sadələşdirilmiş vergiödəyiciləri olan kiçik sahibkarlardır. Bu, illik dövriyyəsi 200 min manatı aşmayan çox sayda vergiödəyicisini əhatə edir. Həmin kateqoriya üçün əhəmiyyətli vergi güzəşti tətbiq edilməsi - vergi dərəcəsinin 4 faizdən 2 faizə qədər endirilməsi təklif edilib. Faktiki olaraq, belə vergiödəyiciləri üçün vergi yükü iki dəfə azaldılmış olur.

İkinci kateqoriya sadələşdirilmiş vergiödəyiciləri bir sıra fəaliyyət növlərini əhatə edir. Bunlar topdansatış fəaliyyəti ilə məşğul olan, tikinti sektorunda fəaliyyət göstərən və digər sahibkarlıq subyektləridir. Dövlət belə kateqoriya sahibkarlara da müxtəlif iqtisadi və fiskal səbəblərə görə sadələşdirilmiş vergiödəyiciləri ola bilmək üçün seçim imkanı verib. Bu sahədə müəyyən mənfi hallar müşahidə edilirdi. Bir sıra hallarda kiçik biznes nümayəndəsi olmayan, yəni, dövriyyələri 200 min manatı aşan bəzi vergiödəyiciləri dövlətin tətbiq etdiyi güzəştlər sistemindən, asan biznesə başlama üsullarından sui-istifadə edərək, dövriyyələrini azaltmaq, bizneslərini məqsədli şəkildə bir neçə yerə parçalayaraq qeydiyyatdan keçirməklə bu güzəştlərə vergidən yayınma vasitəsi kimi baxırdılar. Bundan ən çox əziyyət çəkən məhz kiçik sahibkarlar idi. Çünki orta və iri sahibkarlardan fərqli olaraq kiçik sahibkarların xərclərinin strukturu fərqlidir, gəliri azdır. Kiçik sahibkar öz dükanında satacağı malı və məhsulu böyük həcmdə ala bilmir. Deməli, müvafiq olaraq məhsulu daha yüksək qiymətə almış olur. Nəqliyyat xərcləri daha çoxdur və nəticədə aldığı malı daha yüksək qiymətə satmağa məcburdur. Beləliklə, kiçik sahibkar rəqabətə davam gətirməyə çətinlik çəkir. Dövlət bütün bunları nəzərə alaraq onun vergi güzəşti yolu ilə dəstəklənməsinə qərar verib.

Lakin baş verən sui-istifadə halları göstərir ki, onlar üçün nəzərdə tutulmadığı halda, kiçik sahibkar olmayan bir çoxları da bu güzəştlərdən faydalanırlar. Təbii olaraq bu hal yolverilməzdir, bərabər və ədalətli vergitutma prinsiplərini pozan bir vəziyyətdir. Məhz bu səbəbdən dəyişikliklər paketində sadələşdirilmiş vergi fəaliyyətlərinə də yenidən nəzər salınıb və bu sahə üzrə fəaliyyət növlərinin siyahısı müəyyənləşdirilib.

Vergilər naziri bildirib ki, dövlət kiçik sahibkarlığın dəstəklənməsində maraqlıdır. Bu siyasət davam etdirilir. Dövlət başçısı tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyi yaradılıb və bir sıra təşviqedici mexanizmlər formalaşdırılıb.

M.Cabbarov kənd təsərrüfatı sahəsinə verilən vergi güzəştinin müddətinin daha 5 il müddətinə uzadılmasının təklif edildiyini də bildirib. Bu zaman vergi güzəştləri ilə bağlı məsələlərə toxunan nazir qeyd edib ki, bir çox hallarda bu və ya digər sahəyə, yaxud fəaliyyət növünə verilən güzəşt sahibkarlar tərəfindən vergi uçotuna zərurət olmaması kimi başa düşülür. Bəzi sahibkarlar hesab edir ki, vergi güzəşti varsa, uçot aparılmamalı, qanunvericiliyin digər tələblərinə əməl edilməməlidir. Bu isə sonda mənfi halların yaranmasına gətirib çıxarır. Məsələn, kənd təsərrüfatı istehsalçısına dövlət tərəfindən güzəşt təqdim edilir. Lakin kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) ödəyici işçi ilə əmək müqaviləsi bağlamadığı və ya onun uçotunu aparmadığı halda pozuntu baş verir. Yaxud o, istehsal həcminin və satışının uçotunu aparmayanda müvafiq ticarət şəbəkəsinin vergidən yayınması üçün şərait yaratmış olur və bu, zəncirvari bir halqaya çevrilir. Bu səbəbdən həm inzibatçılıqda, həm qanunvericilikdə, həm də ictimai şüurda belə bir yanaşmanı formalaşdırmalıyıq ki, dövlət güzəşti üçüncü şəxslərin vergidən yayınması üçün təqdim etmir. Güzəşt konkret sahədə çalışan sahibkarların fəaliyyətinin dövlət tərəfindən dəstəklənməsi məqsədi daşıyır.

Nazir həmçinin bildirib ki, vergi qanunvericiliyinə dəyişikliklər paketi təsdiq edildikdən sonra Vergilər Nazirliyinin saytında və kütləvi informasiya vasitələrində ciddi kommunikasiya proqramı həyata keçiriləcək. Hazırda qanunvericilik layihəsi Milli Məclisdədir və aidiyyəti komitələrdə müzakirə olunur. Dəyişikliklər paketi hazırlanarkən onun ayrı-ayrı müddəalarının biznes subyektləri, sahibkarlıq assosiasiyaları və bu sahədə fəaliyyət göstərən ictimai təşkilatlarla birlikdə müzakirəsi aparılıb.

M.Cabbarov vergi orqanları tərəfindən qanunlar çərçivəsində fəaliyyət göstərən ödəyicilərin daim dəstəklənəcəyini, səhvə yol verən vergiödəyicilərinə nöqsanların aradan qaldırılması üçün kömək göstəriləcəyini diqqətə çatdırıb. Əlavə edib ki, nazirlik vergi öhdəliklərindən şüurlu şəkildə yayınan vergiödəyicilərinə münasibətdə dövlətin və qanunun verdiyi bütün hüquq və səlahiyyətlərdən istifadə etməklə adekvat addımlar atacaq.

# Azərbaycan Prezidentinin humanist siyasəti böyük razılıq doğurub

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanına əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Prezidentinin bu fərmanı bir daha onu təsdiq edir ki, dövlətimiz şəhidlərini unutmur və onların müqəddəs ruhunu uca tutur, şəhid ailələrinə böyük ehtiram göstərir.

Azərbaycan Prezidentinin bu fərmanı bir daha keçmişə qayıtmağa, vətənpərvərlik mövzusuna toxunmağa, 90-cı illərdə baş verən hadisələrə zamanın aynasından qiymət verməyə sövq edir. Müstəqilliyimizin tarixi qısa olsa da, bu zaman kəsiyində baş verən dəyişikliklərdən danışmaq, hadisələri fəlsəfi nöqteyi-nəzərdən süzgəcdən keçirmək, milli-mənəvi dəyərlərin, dövlətçilik ənənələrinin inkişafı baxımından qiymətləndirmək zəruridir. Bu baxımdan, ən vacib faktorlardan biri Azərbaycan əsgərinin milli ordunun yeni formalaşdığı 90-cı illərlə bugünkü siması arasında hər birimizin təfəkküründə formalaşan fərqlərin təzadlar səviyyəsində böyük olmasıdır.

Yəqin yaşlı nəslin əksəriyyətinin yaddaşına Qarabağ uğrunda gedən savaşın ilk illərinin ağırlıqları, mənəvi sarsıntıları həkk olunub. Bunu istəsək də, unudan deyilik. Ölkədəki xaos, rayonların bir-birinin ardınca işğal edilməsi, müstəqilliyini yeni əldə edən dövlətin ordu quruculuğunun ləng və səriştəsiz təşkili cəbhə bölgəsində məğlubiyyətləri qaçılmaz edirdi. Bütün ölkə və hər bir insan öz içində gərgin siyasi durumdan, aramsız məğlubiyyətlərdən və o zamankı hakimiyyətin hadisələrin əlində aciz qalmasından ciddi sarsıntılar keçirirdi. Ümid yeri kimi hamı Heydər Əliyevi düşünürdü. Onun hakimiyyətə qayıdışı ruhdan düşən xalqa özünü təsdiq etmək və düşmənin qarşısını almaq üçün vacib idi.

Ulu öndərin hakimiyyətə gəlişindən sonra ordu quruculuğu fərqli istiqamətdə və qaydalarla aparıldı, nizam-intizam gücləndi. Erməni işğalının qarşısı alındı, atəşkəs əldə edildi və bundan yararlanaraq müasir tələblərə cavab verən güclü ordu yaratmaq üçün islahatlar sürətlə aparıldı. Tədricən Azərbaycan Ordusunun siması dəyişdi, Azərbaycan əsgəri öz mətinliyini, məğlubiyyətlərdə itən nüfuzunu bərpa etdi.

Ən vacib məqamları qeyd edək. Ordu gücləndikcə, Azərbaycan əsgərinin də döyüş qabiliyyəti birə yüz artdı. Ordu quruculuğunu Azərbaycan Prezidenti İlham Əliyev bu gün də uğurla davam etdirir. Artıq Azərbaycan Ordusu dünyanın ən müasir silahları ilə təchiz edilmiş, güclü təlimlər keçmiş mükəmməl döyüş qabiliyyətinə yiyələnmiş ordudur.

Bu gün hər birimizin qəlbində öz ordumuza, öz əsgərimizə möhtəşəm bir sevgi var. Biz ordumuzun gücü, əzəməti ilə fəxr edirik, Azərbaycan əsgəri qürur mənbəyimizdir. İndi heç kim qəbul etməz ki, övladı vətən qarşısında hərbi borcunu yerinə yetirməkdən yayınmaq niyyətinə düşsün. Əksinə, hərbi məktəblərə daxil olmaq istəyən gənclərin sayı getdikcə artır. Oğlunu hərbiçi görmək istəyən valideynlər minlərlədir. Hərbi təhsil müəssisələrində təhsil almaq istəyənlərin sayı o qədər çoxdur ki, bu müsabiqələrdə qalib gəlmək üçün dərin biliklər və yüksək fiziki hazırlıq nümayiş etdirmək lazım gəlir.

Bu illər ərzində şəhidlərimizə və şəhidliyə münasibətdə də dəyişikliklər baş verib. Şəhid atasına təsəlli verməyə gələn gənclər ondan xeyir-dua almağa gəlirlər və lazım gələrsə, onlar da vətən uğrunda şəhid olmağa hazır olduqlarını bildirirlər. Şəhidlərin tabutlarına örtülən bayrağı sonda öpüb gözünün üstünə qoyan valideynlər, düşmən qabağında sınmır, əyilmir, "Vətən sağ olsun!" - deyirlər.

Bunlar bizim şüurumuzda ordu ilə xalqı qırılmaz tellərlə bağlayan müqəddəs məqamlardır. Biz dəyişdik! Hər verdiyimiz şəhid bizi sındırmadı, əksinə, qəlbimizdə düşmənə qarşı kinimizi, nifrətimizi artırdı. Biz xalq kimi anladıq və dərk etdik ki, Vətən uğrunda ölüm torpağa gömülmək yox, şəhidlik zirvəsinə ucalmaqdır.

Sonuncu aprel döyüşləri işğalçı ölkəyə Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Bu qələbəni əldə etmək, düşməni vəsvəsəyə salan gücə sahib olmaq üçün son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasətinə uyğun olaraq hərbi sahəyə ayrılan xərclər əhəmiyyətli dərəcədə artırılıb. Dövlət başçısı ölkənin müdafiə potensialını gücləndirməklə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə qayğı ilə yanaşır.

Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı bu fərman onun humanist siyasətinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların ailələrinə, vərəsələrinə göstərdiyi yüksək diqqət və qayğısının bariz nümunəsidir. Dövlət başçısı seçkilər ərəfəsində öz xalqına verdiyi vədi yerinə yetirdi, bir daha sübut etdi ki, onun üçün bu gün də, on il də, iyirmi il də bundan öncə vətənin azadlığı uğrunda döyüşüb şəhid olan əsgər müqəddəs və əzizdir.

1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmiş və qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılmışdır. Həmin qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məsələləri isə açıq qalmışdır. Buna görə də Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel tarixli Fərmanı məhz bu kateqoriyaya aid hərbi qulluqçuların vərəsələrinə aiddir.

Artıq noyabrın 14-dən birdəfəlik ödəmənin verilməsi prosesi qanunvericiliyin tələblərinə ciddi riayət olunmaqla və şəffaflıq tam təmin edilməklə həyata keçirilir. Şəhid hərbi qulluqçuların vərəsələri nazirliyin rəsmi saytında sorğu verərək ödəmə almaq hüquqlarını öyrəndikdən sonra notariat kontorlarına müvafiq sənədləri təqdim edir, vərəsəlik şəhadətnaməsi əldə edirlər.

Bu günə kimi 150-yə yaxın şəhid hərbi qulluqçuların vərəsələrinə müvafiq vəsait verilmişdir. Onlardan bir neçəsi ilə əlaqə saxladıq. Naxçıvandan Hacı Mirzəliyev danışdı ki, oğlu Bağır 1991-ci ildə əsgər gedib, beş il vətəni müdafiə edib, 1995-ci ilin fevral ayında Sədərəkdə şəhid olub. "Dövlətin qayğısını necə qiymətləndirirsiniz" sualına belə cavab verdi:
- Əlbəttə, gözlənilməz oldu, Allah Prezidentin başını uca etsin, aradan 23 il keçib, unutmadı.

Qubanın Rustov kəndindən təqaüdçü Yavər Abdullayeva da şəhid oğlu Mübarizə görə ödənilən birdəfəlik müavinət üçün Prezidentə ana alqışının çatdırılmasını xahiş etdi. Qusardan Sevda Sultanova da şəhid həyat yoldaşı Zakir üçün müavinətlə bağlı müraciət etdiyini, sənədlərinin qəbul olunduğunu, bank hesabının açıldığını bildirdi:

- Bizə Zakirsiz yaşamaq asan olmadı, amma uşaqlarımı böyütdüm, toylarını etdim, indi nənəyəm. Qayğılarım çoxdur, nə gizlədim, elə bil Prezident vaxtında əlimdən tutdu. Dövlətin bizi yada salması, həyat yoldaşıma görə müavinət ödəməsi bizə Vətənlə öyünməyə, fəxr etməyə imkan verir.

Bununla yanaşı, bəzi şəxslərin dövlətin humanist siyasətindən haqsız şəkildə bəhrələnmək, onu təhrif etmək, mahiyyətini sosial şəbəkələrdə kiçiltmək cəhdləri dərin təəssüf hissi doğurur. Azərbaycan Prezidentinin humanist siyasətini gözdən salmaq, bu nəcib addıma ləkə yaxmaq istəyən bəzi siyasi qruplar, ayrı-ayrı fərdlər isə yanlış yolda olduqlarını dərk etsələr, yaxşıdır. Azərbaycan Prezidentinin humanist siyasətini dəyərləndirməyənlərin, bu nəcib addıma ləkə yaxmaq istəyənlərin əsassız ittihamları, özlərini "haqqın müdafiəçisi" kimi cəmiyyətə sırıması utanc gətirən mənəviyyatsız addımdır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ölkəmiz neft statusunu dəyişir

*Əvvəli 1-ci səh.*

Həyata keçirilən sənayeləşmə siyasətində texnoparkların xüsusi yeri var. Texnoparklarda yüksək texnika və texnologiyalar tətbiq edilir, burada fəaliyyət göstərən müəssisələrdə dünya bazarına çıxarılacaq keyfiyyətdə məhsullar istehsal olunur. Texnoparklar ayrıca bir sahə üzrə ixtisaslaşa da bilər. Məsələn, Sumqayıt Kimya Texnologiya Parkı kimi. Adından da məlumdur ki, burada əsasən kimya sənayesi üzrə müəssisələr fəaliyyət göstərir.

Bu gün Azərbaycanda sənaye parkları paytaxt və iri şəhərlərlə bərabər, regionlarda da yaradılır. Bölgələrdə belə parkların yaradılması yerli xammalla bağlı olduğu üçün digər sahələrin inkişafına da təkan verir. Məsələn, Mingəçevir Sənaye Parkında fəaliyyət göstərən 2 iri iplik fabrikində xammal kimi pambıqdan istifadə edilir. Həmin müəssisələr pambığı qonşu pambıqçılıq rayonlarından alır. Deməli, bu qarşılıqlı istehsal əməkdaşlığı həm istehsalçılar, həm də emalçılar üçün əlverişlidir.

Regionların inkişafında sənaye məhəllələri də xüsusi rol oynayır. Sənaye məhəllələrində də xammal kimi yerli xammaldan istifadə olunur. Bu həm bölgələrdə məhsul istehsalını stimullaşdırır, həm də regionda yaşayan əhalinin məşğulluq problemini həll edir. Hazırda Neftçala və Masallı sənaye məhəllələri uğurla işləyir. Neftçala Sənaye Məhəlləsində hətta ildə 10 min avtomobil istehsal gücünə malik zavod da fəaliyyət göstərir.

Azərbaycan bu gün formalaşmış, sabit alıcısı və satıcısı olan dünya bazarına daxil olur. Buna görə də biz ilk növbədə, məhsullarımızın üstünlüyünü dünya bazarındakı müştərilərə sübut etməliyik ki, onları alsınlar. Məlum olduğu kimi, yerli məhsulların xarici ölkələrdə təşviqi məsələləri İqtisadiyyat Nazirliyinin dəstəyi və AzPROMO-nun təşkilatçılığı ilə həyata keçirilir. "Made in Azerbaijan" brendi ilə istehsal olunan məhsulları dünya bazarına çıxarmaq üçün indiyədək 12 ölkəyə 17 ixrac missiyası həyata keçirilib. Bununla yanaşı, Azərbaycan şirkətləri 6 ölkədə keçirilən 14 beynəlxalq sərgidə "Made in Azerbaijan" vahid ölkə stendində öz məhsullarını nümayiş etdirib. Bütün bunlar dünya bazarında məhsullarımızın tanınmasına və ixracına hesablanıb.

Baxmayaraq ki, əldə edilən nəticələr uğurludur, görüləcək işlər də çoxdur. Yeri gəlmişkən, son statistikaya görə, cari ilin 9 ayında qeyri-neft sektoru üzrə ixracın məbləği 1 milyard 207 milyon dollar olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 138 milyon dollar və ya 13 faiz çoxdur. Bu isə o deməkdir ki, ölkəmizdə istehsal edilən məhsullara xaricdə tələbat ildən-ilə artır. Bunu "Azexport.az" portalına daxil olan ixrac sifarişlərinin keçən ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 15 faiz artması da sübut edir. Həmin müddətdə quruma 43 milyon dollar dəyərində ixrac sifarişi daxil olub. Ümumilikdə isə cari ilin 9 ayı ərzində portala daxil olan ixrac sifarişlərinin dəyəri 410 milyon dollara çatıb. Bu dövr ərzində xaricdən daxil olan sifarişlərin coğrafiyası da genişlənərək 106 ölkəni əhatə edib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI III DÖVLƏT PROQRAMI

Sənayenin və kənd təsərrüfatının inkişafına göstərilən dövlət dəstəyi insanların məşğulluğunu təmin etməklə yanaşı, ölkənin ixrac potensialına da müsbət təsir göstərmişdir. İnkişaf bölgələrdə də intensiv xarakter alıb. Belə rayonlardan biri Şəmkirdir.
Təkcə bu il Sahibkarlığın İnkişaf Fondu tərəfindən rayon sahibkarlarına 26 layihə üzrə 1 milyon 809 min manat güzəştli kredit verilib. Nəticədə 3 min 532 iş yeri açılmışdır. Onun 1232-si daimidir. Yerli və xarici investisiyaların həcmi də xeyli artmışdır. İş adamları rayonun müxtəlif sahələrinə 67 milyon 571 min manat vəsait qoymuşlar. Bu vəsait yeni müəssisələrin yaradılmasına və mövcud müəssisələrin genişləndirilməsinə sərf edilmişdir. Lakin qazanılan uğurlar şəmkirliləri arxayınlaşdırmır. Potensial imkanlardan istifadə etməklə yeni istehsal sahələrinin yaradılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.



## Reallaşan layihələr nailiyyətlərdən xəbər verir





### Forel balıq yetişdirilir

Şəmkirdə bu dəfə başqa bir yeniliyə imza atılıb. Yaxın vaxtlarda illik gücü 5 min ton olan forel balığı istehsalı müəssisəsi istifadəyə veriləcək. Hazırda burada son tamamlama işləri görülür.

Rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədovla söhbətimiz də həyata keçirilən layihələr barədə oldu. Masasının üstündə müxtəlif müəssisələrin yaradılması üçün hazırlanmış layihələr, istehsal olunacaq məhsulların daxili və xarici bazarlara çıxarılması üçün aparılacaq təbliğat işlərinə dair xeyli buklet var idi. Dedi ki, ölkə rəhbəri yenilikçi olduğu üçün bizdən də bunu tələb edir. Bu da təbiidir. Həyata keçirilən hər bir yenilik isə iqtisadi inkişaf, xalqın güzəranının yüksəlməsi, əhalinin bol kənd təsərrüfatı məhsulları ilə təminatı deməkdir. Sürətli inkişaf şəhərlə kənd arasındakı fərqi də azaldıb. Bunu Şəmkirin timsalında görmək olar. Yol infrastrukturu yenilənib, ən ucqar kəndlərimizin qaz, elektrik enerjisi, su təchizatı həll edilib.

Sonra qarşısındakı bir bukleti açıb sözünə davam etdi:

- Şəmkir iqtisadi cəhətdən zəngin bölgələrimizdəndir. Respublikamızın aqrar sahədə qazandığı uğurlarda şəmkirlilərin də payı var. Lakin qazanılan uğurlar bizi qane etmir. Rayon ərazisində 3 nəhəng dəryaça var və bu dəryaçalar əkin sahələrinin su ilə yanaşı, bölgəni elektrik enerjisi ilə də təmin edir. Dəryaçalardan digər məqsədlər üçün də istifadə etmək olar. Məsələn, balıqçılığın inkişaf etdirilməsi həm rayon iqtisadiyyatına xeyir verər, həm də balığa olan tələbatı müəyyən qədər ödəyər. Qərara aldıq ki, insanların çox xoşladığı forel balığının yetişdirilməsi üçün təsərrüfat yaradaq. Belə də etdik. Yaxın vaxtlarda burada istehsal ediləcək balıq və balıq məhsulları həm süfrələrimizi bəzəyəcək, həm də “Made in Azerbaijan” brendi ilə xarici ölkələrə ixrac olunacaq. Təsərrüfatın loqosu da hazırlanıb təsdiq edilmişdir.

“Azforel” balıqçılıq təsərrüfatının hovuzlarında xırda forel balıqları var idi. Layihəyə əsasən, illik gücü 5 min ton olacaq təsərrüfat müasir səviyyədə qurulub. Balığın inkubasiya dövründən satışınadək olan mərhələ üçün bütün şərait yaradılıb. Türkiyədən avadanlıqlar gətirilib quraşdırılıb. 5 hektar ərazidə salınan, illik gücü 2 min ton olan təsərrüfatda 12 çeşiddə balıq, 42 çeşiddə balıq məhsulları istehsal olunacaq. Burada balıq kürüsü istehsalı da nəzərdə tutulmuşdur.



### Pomidor ixracında öndədirlər

Məlum olduğu kimi, ölkəmizin ixrac məhsulları sırasında pomidor birinci yerdədir. Bunun da 60 faizdən çoxu Şəmkirin payına düşür. Hər il rayonun istixanalarında yetişdirilən bu ərzaq məhsulu daxili bazarlarla yanaşı, xarici bazarlarda da satılır. Məhz buna görə də bu sahədə zəngin təcrübə toplayan şəmkirlilər hər il istixana sahələrini genişləndirməklə çoxlu qazanc əldə edirlər.

Hazırda rayonda 807 hektar istixana var. Keçən il bu istixanalarda 111 min ton pomidor yetişdirən təsərrüfat sahibləri istehsal etdikləri məhsulu çətinlik çəkmədən xarici bazarlara, əsasən də Rusiya Federasiyasına göndərmişlər. İstixanalarda 5 min 600 ton xiyar, 724 ton göyərti, 17 ton çiyələk də yetişdirilmişdir.

Rayonda elə bir yaşayış məntəqəsi yoxdur ki, orada istixana olmasın. Məsələn, Dəllər Cəyirdə 81 hektar, Əliyaqubluda 97 hektar, Düyərlidə 82 hektar, Keçilidə 55 hektar, Qaracəmirlidə 70 hektardan çox istixana var. Bu istixanalarda 10 minə yaxın insan işləyir.

Ali təhsilli aqronom Firdovsi Quliyev uzun illərdir ki, istixana sahibidir. Əvvəllər istixanada gül yetişdirirdi. Sonralar xarici ölkələrdən Rusiya bazarlarına külli miqdarda gül ixrac edildiyindən çıxış yolunu pomidor istehsalında görən təsərrüfat sahibi tezliklə vəziyyətdən çıxdı. Rusiyada özünə yaxşı bazar tapdı. 40 sot istixanada həm pomidor-xiyar, həm də göyərti yetişdirir. Qazancından da çox razıdır. Söhbət zamanı dedi ki, əvvəlki çətinliklərdən indi əsər-əlamət qalmayıb. Bu şəraiti bizə yaradan ölkə rəhbəridir. Onun iş adamlarına dəstəyi bizə imkan verir ki, məhsul bolluğu yaradaq.

Pomidor istehsalında və ixracında heç bir çətinliyin olmadığını Düyərli kənd sakini Şakir Hüseynov, Dəllər Cəyir kənd sakini Tahir Hüseynov və Qapanlı kənd sakini Məhərrəm Musayev də bildirdilər.

### “Şəmkir Aqroparkı”nın həyata keçirdiyi işlər sakinləri razı salır

Təməli 2014-cü ildə qoyulan “Şəmkir Aqroparkı”nın logistika mərkəzində xeyli iş görülmüşdür. 12,3 hektar ərazisi olan logistika mərkəzinin istehsal sahəsi 3,9 hektardır. Burada Fransanın tanınmış şirkətlərindən birinin meyvələri ölçüsünə, rənginə, zədəliliyinə görə çeşidləyən və qablaşdıran avadanlıqlar quraşdırılmışdır. İri meyvələri çeşidləyən avadanlıqların gücü saatda 50 ton, kiçik meyvələri çeşidləyən avadanlıqların gücü 2 tondur. Burada 200 ton məhsul qəbul edə bilən 2 terminal, 120 ton hazır məhsulu yola sala bilən 1 terminal da inşa edilib. Parkın logistika mərkəzində müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyasında meyvə və tərəvəzlərin keyfiyyəti, bakterioloji və bioloji göstəriciləri, həmçinin toksikliyi üzrə analizlər aparılır.

Mərkəzdə meyvə və tərəvəzlərin çeşidlənməsi, qablaşdırılması və soyuducu kameralarda saxlanılması müasir standartlara uyğun aparılır. Başqa sözlə, laboratoriya nəticələri nəzərə alınır, sonra məhsul xüsusi hidroşoklama qurğusundan keçirilir.

“Şəmkir Aqroparkı”nın ərazisində 49 hektar yeni meyvə bağı da salınmışdır. Onun 9 hektarı albalı, 2 hektarı gavalı, 3,5 hektarı armud, 2,5 hektarı heyva, 2 hektarı badam, 14 hektarı xurma, 15 hektarı ərik və digər meyvələrdir. Bağı 70 hektara çatdırmaq nəzərdə tutulmuşdur.

“Şəmkir Aqroparkı”nın dünyanın istənilən nöqtəsinə məhsul ixrac etmək imkanları var. Hazırda bu parkın logistika mərkəzi Rusiya, Belarus, Ukrayna, habelə Yaxın Şərq ölkələrinə ixrac olunan kənd təsərrüfatı məhsullarının qəbul məntəqəsidir. Bu imkandan istifadə etməyə çalışan rayonun kənd təsərrüfatı məhsulları istehsalçıları daim “Şəmkir Aqropark”la əlaqə saxlayır, onun xidmətlərindən istifadə edirlər. Hazırda fermerlərin istəyi ilə onların 12 min ton məhsulu soyuducu kameralarda saxlanılır. Həmin məhsullar qış mövsümündə ixrac olunacaqdır.

### Mal-qaranın cins tərkibi yaxşılaşdırılır

Şəmkir rayonu heyvandarlığın inkişaf etdirilməsi üçün əlverişli mühitə malikdir. Son illər bu sahə ilə də bağlı bir sıra layihələr uğurla həyata keçirilmişdir. Nəticədə mal-qaranın sayı artmış, əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsi istiqamətində irəliləyişlərə nail olunmuşdur. İcra başçısı Alimpaşa Məmmədov bizə bir şəkil göstərib dedi ki, şəkildəki qoyunlar Avropa ölkələrində geniş yayılıb. Hər birinin çəkisi 120 kiloqramdan çoxdur və ildə 4 bala verir. İstəyirik ki, rayonda onun təsərrüfatını yaradaq. Bunun üçün axtarışlarımız bəhrə verdi. Həmin qoyunlar Cənubi Afrikada geniş yayıldığı üçün qiymətləri də ucuzdur. Yaxın vaxtlarda oradan 1000 baş damazlıq qoyun gətirməyi planlaşdırmışıq.

Heyvandarlığın sürətli inkişafı üçün ən çox diqqət iri təsərrafatların yaradılmasına verilir. Bu məqsədlə yaradılan təsərrüfatlardan biri Şəmkir heyvandarlıq fermasıdır. Ferma 10 min baş iribuynuzlu mal-qara üçün nəzərdə tutulub. Hazırda burada 3 min baş heyvan saxlanılır. Mal-qaranı yemlə təmin etmək üçün 650 hektar sahədə yem bitkiləri əkilir. Müasir üsullarla yetişdirilən taxıl sahələrində pivot suvarma qurğuları quraşdırılıb.

“Arzu-99” heyvandarlıq təsərrüfatı da son illər uğurlu göstəricilərə nail olub. Təsərrüfatın rəhbəri Zeynalabdin Zeynalov söhbət zamanı dedi ki, 1999-cu ildə yaradılan təsərrüfatda hazırda 150 baş mal-qara saxlanılır. Heyvanların sayının az olmasının əsas səbəbi onların cins tərkibinin yaxşılaşdırılması ilə bağlıdır. Çalışırıq ki, süni mayalanma yolu ilə heyvanların cins tərkibini yaxşılaşdıraq. Bu məqsədlə 100 başlıq 5 tövlə inşa etdirmişik. Bu il süni yolla mayalandırılmış inəklərdən 60 baş bala gözləyirik. Süni yolla doğulmuş balaların hər birinə 100 manat subsidiya alacağıq. Yaxın bir neçə ildə heyvanların baş sayını 500-ə çatdırmağı qarşımıza məqsəd qoymuşuq.

Beləcə, Şəmkir rayonunda mütərəqqi medotlardan bəhrələnməklə digər layihələr də həyata keçirilir və hər bir yenilik, hər bir təşəbbüskarlıq uğurların sayını artırır.

**Sabir ƏLİYEV,**
**“Azərbaycan”**

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası istiqamətində ölkəmizin hər yerində olduğu kimi, Oğuz rayonunda da vacib addımlar atılıb. Dövlət proqramında Oğuz rayonunun sosial-iqtisadi inkişafı ilə bağlı daxil edilmiş 13 maddənin əksəriyyəti icra edilib.

## Bugünkü uğur gələcək inkişafın təməlidir







Rayon icra hakimiyyətindən aldığımız məlumatda bildirilir ki, icrası nəzərdə tutulan tədbirlər sırasında ərzaq təhlükəsizliyinə də xüsusi diqqət yetirilib. Bu istiqamətdə hazırda südlük və ətlik üzrə cins mal-qara yetişdirilməsi işləri davam etdirilir. Mal-qaranın süni mayalandırılması işi də yaxşı təşkil olunub. Cari ilin 9 ayında süni mayalanmadan 670 baş buzov alınması bunun nəticəsidir.

Hələ ötən illərin sonlarında da 2018-ci ildə görüləcək işlərin tədbirlər planı hazırlanmışdı. Bu planın icrası çərçivəsində yaşayış məntəqələri üzrə zəruri işlər görülüb. Belə ki, Bucaq-Muxas-Baş Daşağıl kənd və Oğuz-Xaldan avtomobil yollarına qum-çınqıl döşənib və asfalt salınıb. Eləcə də Oğuz şəhərində, Xaçmaz, Xalxal, Baş Daşağıl, Muxas, Bucaq kəndlərinə kabel xətləri çəkilib, yeni Kompleks Transformator Məntəqələri (KTM) sxemə qoşulub, 20 MVA gücündə yeni “Oğuz” yarımstansiyası tikilərək istismara verilib, istehlak olunan elektrik enerjisinin qeydiyyatının düzgün aparılması üçün 4373 sayğac elektron tipli sayğaclarla əvəz edilib. Bundan əlavə, Xaçmazqışlaq kəndində qaz tənzimləyici quraşdırılıb, Top kəndinə qaz xətti çəkilib, Zərrab, Şirvanlı və Tayıflı kəndlərində müvafiq istiqamətdə zəruri işlər görülüb.

Bu dövrdə meliorasiya və irriqasiya işlərinin görülməsi üçün sənədləşmə işləri də aparılıb, o cümlədən Bucaq, Sincan, Top, Padar, Kərimli, Xaçmaz kəndlərində subartezian quyularının qazılması üçün yerlər müəyyənləşdirilib. Həmin kəndlərdə subartezian quyuları qazılıb və hazırda son tamamlama işləri aparılır. Eləcə də Oğuzçay, Daşağılçay, Xalxalçay və Türyançay sistemlərində daşqın və selə qarşı mübarizə məqsədi ilə çay məcrasında təmizləmə, Oğuzçay sistemində Oğuz şəhərini mühafizə edən daş-beton bəndlərində təmir işləri görülüb, Türyançay sistemində Mollalı kəndinin və əkin sahələrinin, Qalaçay sistemində Yemişanlı, Filfilli, Xaçmaz, Dəymədağlı, Sincan kəndlərinin və əkin sahələrinin qorunması üçün qum-çınqıldan mühafizə bəndləri quraşdırılıb. Cari il ərzində Xaçmaz, Sincan, Dəymədağlı və Tərkeş kəndlərində tütün əkini ilə əlaqədar yeni suvarma arxları da qazılıb, qoz və fındıq bağlarına suvarma arxları çəkilib.

Oğuzda abadlıq-quruculuq işləri də genişlənib. Hazırda 7 illik uşaq musiqi məktəbinin dam örtüyü dəyişdirilir. Oğuz şəhərində iki körpələr evi-uşaq bağçasının tikintisi, Padar kənd tam orta məktəbində əsaslı təmir və bərpa gücləndirmə işləri davam etdirilir. Baş Daşağıl, Mollalı və Xaçmazqışlaq kəndlərində yeni modul tipli məktəblərin inşası planlaşdırılıb.

Oğuz royanu Muxas kəndi ərazisində Daşağıl çayı üzərində təməli qoyulmuş kiçik su elektrik stansiyalarının tikintialtı sahəsi 7,22 hektardır. Layihə üzrə burada hidroqovşaq, SES binası, basqılı boru və aparıcı kanal tikintisi nəzərdə tutulub. Hazırda bu istiqamətlərdə tikinti işləri aparılır. Yaxın vaxtlarda 1,5 meqavat gücündə kiçik su elektrik stansiyasının tikilib istifadəyə verilməsi nəzərdə tutulub.

Bundan başqa, rayonun Kərimli kəndində fındıq emalı sexinin, Calut kəndində əlavi istirahət mərkəzinin, Bucaq kəndində cücə sexinin tikintisi başa çatdırılıb. Bucaq kəndində 2016-cı ildə inşasına başlanmış tütün qurutma sexinin bir hissəsi tikilib istismara verilib və hazırda tikinti-quraşdırma işləri davam etdirilir. Yeri gəlmişkən qeyd edək ki, ilin əvvəlindən rayonda açılmış 178 yeni iş yerlərindən hamısı daimidir.

İcra edilən işlərin siyahısını daha da uzatmaq olar. Lakin qeyd olunanlar da Oğuzdakı real mənzərəni təsəvvür etmək üçün kifayət edir. Hazırda regionların sosial-iqtisadi inkişafı ilə bağlı növbəti dövlət proqramının qəbulu gözlənilir. Oğuzlular inanırlar ki, yeni proqramda da dövlətin dəstəyi ilə icra ediləcək layihələr onların sosial vəziyyətlərini daha da yaxşılaşdıracaq.

**Əli SƏLİMOV,**
**“Azərbaycan”**

## Qubanın var alması

*Əvvəli 1-ci səh.*

1983-1984-cü illərdə həmin bağların hər hektarından orta hesabla 450-500 sentner məhsul toplanıldı. 1984-cü ildə Quba bağbanları rayonun tarixində ilk dəfə olaraq 100 min tondan çox meyvə yığmağa müvəffəq oldular.

Ulu öndərin təşəbbüsü ilə aqrar islahatlara start veriləndə Qubada 37 kolxoz, sovxoz və digər bu tip dövlət müəssisəsi var idi. İslahat zamanı həmin təsərrüfatlara məxsus olan 13424 hektar meyvə bağı vətəndaşların xüsusi mülkiyyətinə verildi. Hazırda Qubada 20 min hektara yaxın meyvə bağı var. Bunun 15 min hektarı alma bağlarıdır. Son bir neçə ildə rayonda daha 5000 hektardan çox yeni meyvə bağları salınıb. Həmin bağlarda cırhacı, sarıturş, Şirvan gözəli, qızıləhmədi, sinab, qəndisinab, qaraturş kimi ənənəvi meyvə sortları ilə yanaşı, xaricdən gətirilərək rayonlaşdırılmış yüksək məhsuldarlıqlı palmet sortları da geniş yayılıb.

Bağçılığın inkişafının elmi əsaslarını işləyib hazırlamaq məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin Qubada Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutu fəaliyyət göstərir. 1926-cı ildə yaranan, 1960-cı illərin əvvəllərinədək Mərdəkanda fəaliyyət göstərən bu institut 1964-cü ildə Qubaya köçürülüb. Hazırda 4 şöbə və 3 laboratoriyadan ibarət olan bu institutda 194 nəfər çalışır. İnstitutun Lənkəranda sitrus bitkiləri filialı, Abşeronda təcrübə stansiyası, Qəbələdə və Zaqatalada dayaq məntəqələri fəaliyyət göstərir.

Hər il Quba bağlarından 100 min tondan çox meyvə yığılır. Onun bir hissəsi bağlardan birbaşa emal müəssisələrinə, bir hissəsi satışa göndərilir. Satışa çıxarılan məhsulun çox hissəsi ənənəvi meyvə növlərinə aiddir. Çünki alıcı daha çox geni dəyişdirilməyən meyvə sortlarına üstünlük verir. Qubada ayrı-ayrı sahibkarlar tərəfindən ümumi tutumu 20 min tona yaxın olan 11 soyuducu-kamera da tikilib. Bu, bağbanlara imkan verir ki, istehsal etdikləri məhsulun bir hissəsini soyuducularda saxlayaraq daha sərfəli vaxtlarda bazara çıxara bilsinlər. Bağlardan bol məhsul götürən hər bir qubalı bu gün də ulu öndər Heydər Əliyevin diqqət və qayğısını minnətdarlıqla xatırlayır.



Digər bölgələr kimi, Quba rayonunun inkişafına dövlət daim dəstək verir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın Qubaya etdikləri hər səfər unudulmaz anlarla yadda qalır. Təkcə bu faktı qeyd etmək kifayətdir ki, sonuncu səfər zamanı Zərqava-Qasımqışlaq-Çayqışlaq-Xaspolad-Aspərəsti yolunun, Quba Rayon Mərkəzi Xəstəxanasının yeni binasının, “Günəş” körpələr evi-uşaq bağçasının, “ABAD Factory” istehsalat kompleksinin, “Qubaekoaqrar” MMC kənd təsərrüfatı mallarının istehsalı zavodunun açılışı olmuşdur. Ölkə rəhbəri və xanımı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Zərdabi qəsəbəsində yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu binasının əsaslı təmirdən sonra orada yaradılan şəraitlə, Quba şəhərinin girişində ən müasir tələblər səviyyəsində yaradılmış “Gənclər parkı” ilə tanış olmuşlar.

Dövlət başçısı Qubanın daha sürətli inkişafı üçün müvafiq tapşırıq və tövsiyələrini vermiş, rayonla bağlı dörd sərəncam imzalamışdır. Bu sərəncamlara əsasən, Quba-Qonaqkənd avtomobil yolunun tikintisinin davam etdirilməsi, Susay-Xınalıq avtomobil yolunun, Quba şəhərində 48 mənzilli yaşayış binasının və Alekseyevka kəndində 960 şagird yerlik məktəb binasının tikintisi üçün müvafiq məbləğlərdə vəsait ayrılmışdır.

Artıq Qubada alma yığımı başa çatıb. Cari təsərrüfat ilində rayon üzrə 101 min 800 ton alma tədarük edilib. Almanın çox hissəsi Azərbaycan brendi kimi Rusiyaya, Belarusa, Qazaxıstana, Ukrayna respublikalarına idxal edilib. Qubanı cənnətə çevirən, onun bir növ brendi sayılan almanı qubalılar sevə-sevə becərdikləri kimi, səliqə ilə dərirlər. Rayonun Zərdabi, Alekseyevka, Vladimirovka, Barlı, Gültəpə və digər kəndlərində dərilən almanın böyük hissəsi ixrac olunur. Sahibkarların bağladıqları müqavilələr əsasında yetişdirilən meyvə Rusiya, Özbəkistan, Türkmənistana və digər ölkələrə göndərilir. Yeri gəlmişkən qeyd edək ki, həmin ölkələrdən gələn nümayəndələr dəfələrlə Qubada olmuş, almanın becərilməsini yaxından müşahidə etmişlər.

Qubalılar respublikamızın şəhərlərində yaşayanları da yaddan çıxarmırlar. Respublikanın müxtəlif şəhərlərində keçirilən yarmarkalara minlərlə ton alma göndərilib. Qiyməti də münasib olduğu üçün əhali tərəfindən razılıqla qarşılanır.

Qubada yeni bağlar da salınır. Almaniya, Fransa, Türkiyə və digər ölkələrdən gətirilən alma sortları 350 hektar ərazidə becərilməyə başlanıb. Yaxın gələcəkdə daha bir neçə yüz hektar yeni bağın salınması nəzərdə tutulub. Onu da qeyd edək ki, yeni alma bağlarının salınmasında rayonun bütün idarə və təşkilatlarında çalışanlar yaxından iştirak edirlər. Hətta rayon mərkəzindəki məktəblərin çoxunun alma bağı var. Bu günlərdə aztəminatlı ailələrə yardım etmək məqsədilə yeni bağlar da salınıb.

**Akif ƏLİYEV,**
**“Azərbaycan”**



# 105 yaşlı «Arşın mal alan»

Şuşanın dolanbac küçələrini dolaşan gənc arşınmalçı: “Arşın mal alan...” - deyə oxuyur. Şuşalıların çoxu kimi, səsi heyranedicidir. Yad kişilərin döyə bilmədikləri qapılar ona açılır. Çünki o, arşınmalçıdır. Boxçasındakı malları qızlar, gəlinlər əl-lək-vələk edir, özlərinə yaraşanını seçirlər. Evlənmək yaşına çatmış, ancaq taytuşlarından fərqli olaraq görmədiyi qızla ailə qurmaq istəməyən cavan arşınmalçı isə beləcə, öz qismətini axtarır...

İllər sonra Üzeyir bəy Hacıbəyli şöhrətini yeni zirvəyə çatdıran “Arşın mal alan” operettasında həmin səhnələri əks etdirəcəkdi. O vaxtlar isə Azərbaycanın musiqi diyarı sayılan, ilk müəllimi, ilham çeşməsi olan o əsrarəngiz şəhərdə gələcəyin dahi bəstəkarı xalqının yaşamını, musiqi ənənələrini dərindən öyrənir, həvəskar artistlərin ifasında “Məcnun Leylinin məzarı üstündə” tamaşasına maraqla baxırdı. Yaddaşında dərin iz salan bu xatirələr sonralar ona “Leyli və Məcnun” operası və başqa əsərlər yazdıracaqdı. Son operettasında - “Arşın mal alan”da isə o, əziz şəhərdə keçən unudulmaz illərin mənzərələrini canlandıracaqdı.

## Rusiyada ilk operetta

Üzeyir bəy bu əsəri 1913-cü ildə Peterburq Konservatoriyasında təhsilini davam etdirərkən yazdı. Operettanın librettosunun müəllifi də özü oldu. Müəllif əsərini əvvəlcə polifoniya müəllimi professor Vasili Pavloviç Kalafatiyə göstərdi. Əsər Kalafatinin çox xoşuna gəldi. Məsləhət gördü ki, onu konservatoriyanın direktoru, görkəmli rus bəstəkarı, professor Aleksandr Qlazunova təqdim etsin. Üzeyir bəy belə də etdi. Əsərə heyran qalan Qlazunov onu bütün Rusiyada ilk operetta adlandırdı.

Üzeyir bəy “Arşın mal alan”ın partiturasını və librettosunu Bakıdakı dostlarına göndərdi. Bundan qabaq - 1913-cü ilin 30 iyulunda Hüseynqulu Sarabskiyə Sankt-Peterburqdan yolladığı məktubda o, yazmışdı: “Bəradərim Hüseynqulu! Mən dəxi bu halda bir tərəfdən dərs oxumaqda və bir tərəfdən də “Arşın mal alan”ı yazmaqdayam. Amma çox qəribə operetta olacaqdır. İnşallah, sentyabrda göndərərəm ki, əvvəlcə onu qoyasınız.

...Mənim də bu qədər əlləşməyim odur ki, gələcəkdə teatr işini elə bir hala salaq ki, nəinki təkcə bir Bakı və ya Qafqaz, bəlkə hər bir yerdə və hər bir şəhərdə teatr verməyə imkanımız olsun. Ancaq bir qədər vaxt gözləmək və zəhmət çəkmək lazımdır. Mən Bakıda olarkən öz əsərlərimin qədrini bilmirəmmiş, amma burada bilirəm ki, mənim əsərim gələcəkdə böyük bir iş görəcəkdir!”

1938-ci ildə “Arşın mal alan” haqqında qeydlərim” adlı məqaləsində Üzeyir bəy yazacaqdı: “Arşın mal alan” 1913-cü ildə Peterburq Konservatoriyasında oxuduğum zaman yazılmışdır. Onun süjeti Qarabağın Şuşa şəhərinin həyatından alınmışdır. “Arşın mal alan” yazılıb qurtardıqdan sonra mən çar senzurasından əsərin çap edilməsi və oynanılması üçün icazə almağa çox vaxt sərf etdim, çox əziyyət çəkdim”.

## Ağılları gözündə olan adamlar...

“Arşın mal alan”ın premyerası 1913-cü il oktyabrın 25-də Bakıda Tağıyev Teatrında keçirildi. Hüseynqulu Sarabski quruluş verdiyi tamaşada həm də Əsgər rolunu oynadı. Əhməd Ağdamski Gülçöhrə, Məmməd Hənifə Terequlov Süleyman, Ələkbər Hüseynzadə Soltan bəy, Gülsabah xanım Asya, Olenskaya Telli rolunda səhnəyə çıxdılar. Tamaşanın dirijoru isə Müslüm Maqomayev idi.

Operettanın ilk tamaşası Bakıda böyük səs-səda yaratdı. Bir ilin içərisində “Arşın mal alan” yalnız bu şəhərin teatr səhnələrində 150 dəfədən çox oynanıldı. Dövrün mətbuat orqanlarının əksəriyyəti həmin tamaşadan yazırdılar. “Sədayi həqq” qəzeti 3 noyabr 1913-cü il tarixli nömrəsində bildirirdi: “Müsəlman bəstəkarı Üzeyir bəy Hacıbəyovun təzə operettası “Arşın mal alan” camaata çox xoş gəlib, təkrar oynanmasını xahiş etdiklərinə görə cümə günü noyabrın 8-də ikinci dəfə oynanacaqdır. Soltan bəy rolunda camaatın hüsni-təvəccöhünü qazanmış Ələkbər Hüseynzadə çıxış edəcəkdir”.

“Yeni iqbal” qəzetinin 16 mart 1916-cı il tarixli nömrəsində Nəriman Nərimanov həm musiqi, həm də məna cəhətdən bəyəndiyi tamaşa haqqında yazırdı: “Arşın mal alan” operettasında bir ideya var, desək, yarar. Nədir o ideya? Qızı görməmiş almaq olmaz. Cənab Əsgər bəyin fəlsəfəsində arvad mal kimi bir şeydir. Malı görüb almaq kimi, qızı da gərək əvvəl görəsən, sonra alasan. Demək ki, Əsgər bəyin fəlsəfəsilə arvad almaq üçün bir sifətini görmək tamamdır. Şəksiz bu, bir tipdir, ağılları gözündə olan adamların tipidir...

Üzeyir bəy cənabları oxuduğu elmin səbəbinə daha gözəl operalar meydana gətirəcəkdir. Hər halda, qeyri əsərlərə nisbət hal-hazırda Üzeyir bəyin əsərləri yolu açır. Bu yolda Üzeyir bəyin daha artıq tərəqqi etməyini səmimi qəlbdən istəyirik”.

Tərifini göylərə qaldıranlarla yanaşı, “Arşın mal alan”ı tənqid edənlər də oldu. İkincilərə xoş gəlməyən daha çox müəllifin qadın azadlığı, köhnə adət-ənənələrin bəzilərinin gərəksizliyi kimi məsələləri diqqətə çatdırması idi. Müəllifin tənqidi hədəfə dəyirdi. Operettadakı obrazlar - yenilikdən uzaq, köhnə adətlərin əsiri olan tacir Əsgər, Süleyman, Soltan bəy, dörd divar arasında böyümüş, hüquqsuz, savadsız, sevib-sevilməkdən məhrum edilən, tay-tuşları kimi bir gün görmədikləri adama ərə veriləcəklərini bilən, onun necə olacağının fikrini çəkən Gülçöhrə və Asya o cəmiyyətdə yaşayan, real insanlar idilər.

Operetta haqqında mətbuat orqanlarında da mənfi rəy verənlər oldu. “Arşın mal alan” haqqında qeydlərim” məqaləsində Üzeyir bəy özü də yazırdı: “Bu əsər birinci dəfə oynandığı zaman Bakı burjuaziyasının “Kaspi” qəzeti tərəfindən son dərəcə hörmətsizlik və nifrətlə qarşılanmışdır. Əsər haqqında yazılmış “tənqiddə” avtor söyülürdü. Onlar bu əsəri “qızlarımızı pis yola çağırmaqda” töhmətləndirirdilər. O zamanlar azərbaycanlı qızlar ən elementar hüquqlardan belə məhrum edilmişdilər. Bu komediyanı yazmaqda da məqsəd səhnədə musiqili əsər vasitəsilə qadın azadlığına yardım etmək, köhnə adət və ənənələri ifşa etmək idi”.

## Güldürən və düşündürən əsər

Zaman yenə Üzeyir bəyin üzaqgörənliklə söylədiklərini təsdiq etdi. “Arşın mal alan”ın şöhrəti müqayisəyəgəlməz oldu, 80 dilə tərcümə edildi. 76 ölkənin 187 teatrında - ABŞ-ın 16 ştatında, Gürcüstanın 16, Bolqarıstanın 17, Polşanın 17, Rusiyanın 28, Çinin 8 şəhərində tamaşaya qoyuldu. Hər dəfə də tamaşaçı alqışları salonu titrətdi.

1919-cu ildə Hacıbəyli qardaşlarının Türkiyədə qastrolları zamanı tamaşa elə uğur qazandı ki, Azərbaycan artistləri İstanbuldakı “Şərq” teatrını bir neçə aylıq icarəyə götürməli oldular. Operettanı fransız dilinə Üzeyir bəyin kiçik qardaşı Ceyhun bəy tərcümə etdi. 1925-ci il iyulun 4-də Parisin “Femina” teatrında fransızlar bu tamaşanı məşhur aktyorların - Dervalın (Soltan bəy), Montenin (tacir Əsgər), Passaninin (Gülçöhrə), Maqalinin (Asya) ifalarında izlədilər.

Azərbaycanda qadınların səhnəyə çıxmasına maneələr yaradıldığı vaxtlar “Arşın mal alan”a da aktrisa tapmaq müşkülə çevrilirdi.

Sovet hakimiyyəti illərində “Arşın mal alan” nəinki İttifaqa daxil olan respublikalarda, bütün dünyada dönə-dönə tamaşaya qoyuldu. Üzeyir bəyin doğma xalqının muğam irsindən bəhrələnərək yazdığı bu əsər yalnız müəllifinə və vətəninə deyil, bütün SSRİ-yə şöhrət gətirdi. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyündə səhnəyə çıxarılan “Arşın mal alan” operettası haqqında Moskva mətbuatında bir-birindən maraqlı məqalələr dərc olundu.

Tamaşadan müəllif özü də razı qalmışdı. Üzeyir bəy Böyük teatrda rejissor Hidayətzadənin quruluşunda “Arşın mal alan”ın keçmiş quruluşlarının hamısından üstün olduğunu yazdı, tamaşanın bədii tərtibatında gənc rəssam Ədhəm Sultanovun əməyini, artistlərdən Bülbül, H.Hacıbababəyov, Sona Mustafayeva, Səltənət Quliyeva, Aliyə Terequlova, Elmira Axundova və başqalarının ifalarını yüksək qiymətləndirdi.

Operetta XX əsrin əvvəllərində, Azərbaycanda “səssiz filmlər” çəkmək istəyən rejissorların müraciət etdikləri ilk əsərlərdən oldu. “Arşın mal alan” müxtəlif illərdə dəfələrlə ekranlaşdırıldı. Müəllifini və Azərbaycanı o qədər məşhurlaşdırdı ki, ermənilər əvvəlcə bu şöhrətə şərik olmaq, sonra isə tamam mənimsəmək xülyasına düşdülər. Ancaq Üzeyir bəyin Azərbaycan musiqi xəzinəsi üzərində qurduğu bu əsər bütün erməni yalanlarından ucada dayandı.

Üzeyir bəy bütün işlərində olduğu kimi, “Arşın mal alan”ında da ustadlığını nümayiş etdirdi. Tamaşaçını yerli-yersiz güldürmək xatirinə bir hərəkətə və ya ifadəyə belə, yol vermədi. Buna görə Üzeyir bəyin oz sevimli xalqı üçün irs qoyub getdiyi bu ölməz sənət əsəri uzun illərdir teatrların repertuarını bəzəyir. “Arşın mal alan” tamaşası 105 ildir ki, səhnədən düşmür. Tamaşa dünyanın müxtəlif səhnələrində oynanılır. 2013-cü ildə UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında “Arşın mal alan” operettasının 100 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsi haqqında qərar qəbul olundu. Həmin il UNESCO-nun Baş Qərargahında TÜRKSOY, eləcə də Azərbaycan və Qazaxıstanın UNESCO-da daimi nümayəndəliklərinin birgə təşkilatçılığı ilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettasının 100 illiyinə həsr edilmiş bayram tədbirləri keçirildi.

Yazıldığı vaxtdan zaman keçdi, dövran dəyişdi. Amma “Arşın mal alan” nə yaşa doldu, nə də köhnəldi. 105 il əvvəlki kimi, bu gün də bütün dünyada səhnələşdirilən əsər tamaşaçılarını heyran edir və düşündürür.

***Zöhrə FƏRƏCOVA,***
***“Azərbaycan”***

## 19 noyabr Beynəlxalq Kişilər Günüdür

# KİŞİLƏR BİR OLMUR...



Abdulla Məmmədov

**Gördüyüm mənzərə qarşısında o qədər heyrətlənmişdim ki, nə deyəcəyimi, necə edəcəyimi bilmirdim...**

**Atam ağlayırdı...**

**Yıxılmaz qala kimi qarşımda duran bu ahıl kişi səssiz-səssiz ağlayırdı...**

**Bəs, kişilər ağlamaz deyirdilər?!**

**İllər sonra, elə bu dəqiqə, bu an başa düşmüşdüm ki, səbəb nə olursa-olsun, kişilər ağlayanda dağlar da ağlayırmış...**

**Hamının yanında yox, özlərini həbs etdikləri o qaranlıq boşluqda ağlayırlar, toxuna bilmirsən, göz yaşları dəydiyi yeri yandırır, yaxınlaşa bilmirsən...**

**Bəzən içdən-içə bir inilti, bəzən də sadəcə bir hüzn olur kişilər üçün ağlamaq...**

**Bağırları partlayır, qəlbləri sıxıntıdan parçalanır, qara qanlar axır ürəklərindən, amma kişi kimi hər bir acıya dözür, ağlamırlar, sızlamırlar, şikayət etmirlər, sadəcə, susurlar, susurlar...**

## Yaşanmış üç ömrün tarixçəsi

Və bu da gerçəklikdir ki, hər lal sükutun arxasında yaşanmış bir ömrün səs-küylü tarixçəsi gizlənir...

Bu gün də öz ağrı-acısını ürəyində daşıyan, üzlərində illərin, gözlərində doğmalarının ağrı-acısı həkk olunan üç kişi - iki məcburi köçkün və bir fiziki məhdudiyyətli kişi barədə söhbət açacağıq sizlərə. Əslində, bu həyat hekayələri onların taleyini yaşayan hər bir kişinin ümumiləşdirilmiş obrazıdır...

Həmsöhbətimizin ilki 58 yaşlı məcburi köçkün Məhəmməd Əhmədovdur. Zəngilan rayon Akara kənd sakini olan Məhəmməd kişi üç qız atasıdır. Bu yaşına kimi zəhmətkeş əlləri ilə başqalarına ev tikə-tikə özünə də Sumqayıtda balaca bir yuva qurub.

Məhəmməd Əhmədov 1993-cü il oktyabrın 27-si bütün yaşadıqlarını geridə qoyub həyatına sıfırdan başlamalı olur və deyir ki, o gün hər şeyini, öz əlləri ilə qızları üçün qurduğu isti ocağını itirir

- Atadan yetim böyümüşəm, 7 uşaq olmuşuq və anam bizi min bir zəhmətlə böyüdüb. 9-cu sinfi bitirib peşə məktəbinə qəbul oldum, “malyar”lığı öyrəndim. Başladım işləyib, evə çörək pulu gətirməyə. Çox əziyyətlə özümə gün ağlamışdım. Özümüzə rahat şərait qurmaq üçün gecə-gündüz növbəli işləyirdim və buna da nail olmuşdum. İndi “Mən nə vaxt əsl gün görmüşəm?” sualına cavab düşünəndə, öz-özümə, “bax, orda, Zəngilanda” deyirəm.

## Hər şeyini itirmiş və hər şeyə yenidən başlamalı olan ailə başçısı

25 il öncə - 1993-cü ilin oktyabr ayının 27-si, o məşum gün ailəsini Arazın o tayına keçirib özü kəndə qayıdır. Kişilər müharibədə iştirak etməli idilər və o, nə isə başına gələcəyi ehtimalını gözünün önünə gətirib ailəsi, qızları ilə sağollaşır.

Kəndə qayıdıb şəkilləri, toy kasetini torpağa basdırır ki, onsuz da yenidən öz evlərinə qayıdacaqlar. Amma hərbçilər mülki şəxslərə deyirlər ki, rayonu tərk etməlidirlər. Özü ilə heç nə götürmədən, Araz çayını keçir... Ordan geriyə dəhşətli mənzərəyə tamaşa edir. Ermənilər illərlə min əzab-əziyyətlə tikib-qurduğu evinə od vurub yandırırdılar. Ərşə qalxan alovun istisi qəlbini közərdir. Üç gün İranda qaldıqdan sonra Azərbaycana keçirlər.

- Sumqayıta gəldik. Burda qardaşlarım qalırdı. Təsəvvür edin, hər şeyini itirmiş, hər şeyə yenidən başlamalı olan bir ailə başçısı... Ailənin bütün ümidi onadır. O bizi yenidən bir damın altına yığacaq, bizə çörək pulu qazanacaq - deyirdilər. Küçələrə düşüb iş axtarmağa başladım. Nə vaxta qədər kiməsə sığınasan?

Ailəm də qapılarda bir küncə sığınıb yaşayırdı. Qardaşım olsa belə, onlara çox narahatlıq verməyim deyə, evə çox vaxt elə yatmağa gedirdim. Heç birimizin əyin-başı yox idi. Onun-bunun verdiyi köhnələrlə yola verirdik. Bir iş tapdım. İşləyib ilk pulumla geyim aldıq. Sonra balaca bir otaqda kirayə qalmağa başladıq. Yağış yağanda otağın tavanından damırdı deyə, uşaqlar hər tərəfə vedrə, vanna düzürdü.

Daha o ağrılı-acılı günlər barədə nə danışmaq istəyirəm, nə də xatırlamaq. Min bir əziyyətlə bu zamana kimi gəlib çıxdıq, ailəmə bir şərait qura bildim. Düzdür, ordakı ilə eyni deyil, amma buna da şükür. İllərdir başqalarına ev qurdum, daş qaldırdım, əllərim qabardır. Həmişə qızlarım “atam bizi o zəhmətkeş əlləri ilə bu yaşa kimi böyüdüb” deyirlər. Onların təhsil almaları üçün dincəlmədən fasiləsiz işləmişəm. İkisi ali təhsil alıb, balacası isə kollec bitirib. İndi artıq ahıllığa doğru gedirəm. Qızlarımın ikisi ailəlidir. Nəvələrim də var.



Məhəmməd Əhmədov



İlham Məhərrəmov





Qənimət Bağırov

## Bədənim qəlpələrlə dolu idi, əlim, ayağım işləmirdi...

23 il öz ayaqları üstündə duran, gələcəyinə dair çox gözəl arzuları olan bir gənc idim. Ta ki, o günədək... Ayaqlarım, əllərim işləmədi. Dünya üstümə çökmüşdü sanki. Onun ağırlığı altından qalxmağa nə həvəsim, nə də gücüm var idi. Artıq hər şey mənə mənasız görünürdü və intihar etməyi belə düşünürdüm...

Bu fikirləri söyləyən isə 47 yaşlı fiziki qüsurlu İlham Məhərrəmovdur. Moldovada hərbi xidməti başa vurduqdan sonra vətənə qayıdan İlham 2-3 aydan sonra könüllü olaraq Qarabağ müharibəsinə yollanır. 1992-94-cü illərdə Ağdərə, Kəlbəcər, Tərtər istiqamətində döyüşür.

Döyüşlərin birində ağır yaralanan 23 yaşlı gəncin hər iki ayağı hərəkətini itirir. İlham müəllim hazırda Azərbaycan Milli Paralimpiya Komitəsində işləyir və bu ilin mart ayından etibarən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dəstəyi ilə yaradılmış “Boccia” İdman Federasiyasının baş katibidir. Ailəlidir, 8 və 3 yaşlarında iki qızı var .

Deyir ki, yaralanandan sonra həyat onun üçün bitmiş sayılsa da, yenə xırda bir ümid işığına tutunaraq həyatda mübariz olmağı bacarıb: “Təsəvvür edin, 23 yaşlı bir gəncəm, bədənim qəlpələrlə doludur və əlim, ayağım işləmir. 7-8 ay Bakıya gəlib sanatoriyada müalicə alıb, qayıdırdım. Ümidvar idim ki, ayaqlarım düzələcək və mən yenidən gəzəcəm, amma olmadı...”

## Bütün həyatım puç olmuşdu, amma...

Sonra Ramanada yerləşən 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzinə getdim. Bir gün həyətdə oturmuşdum, qanım qara idi, heç kimlə də söhbət etmirdim. Axı, bütün həyatım puç olmuşdu... Birdən gözüm özlərinə yuva tikən iki qaranquşa sataşdı. Saatlarla izlədim və qaranquşlar mənə bu həyatda yaşamaq üçün daha çox səbəblər olduğu hissini aşıladı. Düşündüm ki, əgər Allah bu quşa dimdiyi ilə yuva qurmaq qabiliyyətini veribsə, bizi də ayaqlarımızdan məhrum etməklə həyatımızı sonlandıra bilməz. O gündən mən də başladım özümə yuva, gələcək qurmağa...

İki qız övladı böyüdən İlham müəllim danışır ki, maddi mənada da çox sıxıntılar yaşayıb. Günlərlə ancaq kartof, soğan yedikləri vaxtlar olub. Özü divarın bir küncündə, anası o biri küncündə qısılıb kövrəlirlərmiş. Bir qədər sonra kiçik biznesə başlayıb. Ailə qurandan sonra isə sanki Allah ruzilərini yetirib.

## Bir qapı bağlanırsa, mütləq digər qapını açıb başlamaq lazımdır

- Çətin günlərimdə ailəm də mənə böyük dəstək oldu. Əgər onlar yanımda olmasaydılar, mən psixoloji gərginlikdən çıxa bilməzdim. 7-8 ay rayondan Bakıya müalicə almağa gəlirdim, sonra qayıdırdım. O vaxt heç əlil arabam da yox idi. 1997-ci ildən getdiyim Ramanadakı reabilitasiya mərkəzində ictimai işlə məşğul olmağa başladım. 35-ə yaxın Qarabağ əlilini bir araya gətirdim və Qarabağ Əlilləri Cəmiyyətinin dayaq nöqtəsini qurdum. Bir müddət xırda ticarətlə də məşğul oldum. Sonra Paralimpiya komitəsinə qoşuldum, kamandan ox atma ilə məşğul oldum.

Bu idman növü üzrə respublika çempionu adını qazandım. Daha sonra səhhətimlə əlaqədar Ukraynaya müalicəyə getdim və 10 il orada qaldım. Geri qayıdanda Paralimipiya komitəsinin rəhbəri İlqar Rəhimov mənə komitənin reabilitasiya mərkəzində kurator işləməyi və mərkəzə gələn digər əlilləri də paralimpiya idman növlərinə cəlb etməkdə onlara kömək göstərməyi təklif etdi. Sonra birlikdə “Boccia” idman növü yaratdıq. Bu idman növü xüsusilə əlləri problemli, heç əlləri işləməyən insanlar üçündür. Mənim də yaralanandan sonra əllərim bir müddət işləmədiyi üçün onları yaxşı anlayırdım. İki ildən sonra məni “Boccia” idman növü üzrə baş məşqçi təyin etdilər. Bu günə qədər 70-ə yaxın insanı bu idman növünə cəlb etmişik. İdmançılarımız ölkədə keçirilən 5 turnirdə iştirak ediblər. Bundan başqa, İspaniyada, bu yaxınlarda isə İtaliyada keçirilən çempionatlara qatılmışıq. Komandamız bir qızıl, üç bürünc medal ilə geri qayıdıb.

Bir sözlə, dövlətin qayğısı ilə çətinlikləri arxada qoydum. İndi həyatımı qızlarıma həsr etmişəm. Yalnız onlar üçün çalışıram. Əlimdən gələni edirəm ki, bir sənət sahibi olsunlar. Onların təhsilinə nə lazımdırsa, mütləq edəcəm.

İlham Məhərrəmov deyir ki, fiziki məhdudiyyətli şəxslər əlilliklərini özlərinə problem etməsinlər, həyatın hər üzü, hər çətinliyi var və bir qapı bağlanırsa, mütləq digər qapını açıb, hər şeyə yenidən başlamaq lazımdır.

## Yerlə-göyün qovuşduğu yerdə

Kəlbəcər rayonunun Hacıkənd kəndindən məcburi köçkün olan 74 yaşlı müəllim Qənimət Bağırovun dediyinə görə, ona elə gəlir ki, heç Kəlbəcər kimi bir yer olmayıb, orada yaşamayıb, uşaqları orada doğulmayıb, onlarla bağlı heç bir arzuları olmayıb...

İndi dönüb geriyə baxanda ancaq ora ilə bağlı yaddaşında iz buraxan xatirələr canlanır. Həyat yoldaşı ilə bərabər məktəbdə müəllim işləyir, dərsdən sonra kiçik ailə təsərrüfatları ilə məşğul olur, azyaşlı övladları ilə xoş zaman keçirirdilər. Hər il məktəblər bağlanan kimi Qoç Daş yaylağına çıxar, 3 ay yay tətilini orada keçirərdilər.

- Yaylaq o qədər hündür idi ki, dumandan göz-gözü görmürdü, yağış yağanda çadırımızın üstünə dəyən damlaların tappıltısı, göydə toqquşan buludların gurultusu elə bir təsəvvür yaradardı ki, sanki bu dəqiqə yerlə-göy qovuşur... Nağıllar aləmində yaşayırdıq. Çox qayğısız idik, uşaqlarımı istədiyim kimi böyüdür, onların gələcək həyatları barədə arzular qururdum.

Budur bax, artıq övladları universitet məzunudur, diplomlarını ona göstərirlər. Ağ duvaqlı qızlarına, al lentli gəlinlərinə xeyir-dua verir... Amma sən demə, bütün bu arzularının, xoşbəxt günlərinin sona çatmasına elə də çox zaman qalmayıbmış...

- 1993-cü il aprelin 1-i səhərə yaxın xəbər gəldi ki, ermənilər artıq Kəlbəcərin bir neçə kəndini tutublar. İnanmadıq, düşündük ki, yəqin şayiədir, amma insanların ala-toranda vahimə içində tələsik kəndi tərk etdiyini gördükdə, məsələnin nə qədər ciddi olduğunu anladıq. Kəndin kişiləri qadınları, qocaları, uşaqları maşınlarla Murov yolu ilə yola salırdılar. Özümüz kəndi tərk etmədik. İnana bilmirdik ki, ermənilər Kəlbəcəri ala bilərlər. Düşünürdük ki, yəqin bir-iki günə ailələrimizi yenidən qaytararıq öz ocaqlarımıza... Qapısı bağlı tövlələrdən gələn mal-qaranın səsindən insanın əti ürpəşirdi. Getdikcə atışma səsləri yaxınlaşır, qonşu kəndlərdə yandırılan evlərin tüstüsü ərşə dirənirdi. Daha əliyalın halda durub düşməni gözləməyin heç bir anlamı yox idi, amma, bunu qürurumuza sığışdıra bilmirdik...

## Əslində, bu, bir yuxu imiş...

Artıq vəziyyətin çətinləşdiyini görəndən sonra məcburən kəndi tərk etməli olurlar və Murov yolu bağlandığı üçün gizli yolla Kəlbəcərdən çıxırlar. Gəncəyə çatanda aprelin 4-ü imiş və ailələri onların ya əsir düşdüyünü, ya da öldüyünü düşünürmüş.

Burada öyrənir ki, rayonun özündə yaşayan 73 yaşlı əmisi ermənilərə əsir düşüb. Bir müddət sonra əsirlərin dəyişdirilməsi zamanı əmisini də azad edirlər, amma ona verilən dəhşətli işgəncələrdən sonra 1 ay yaşamadan vəfat edir. Bir tərəfdən ölkədə o zaman mövcud olan vəziyyət, qıtlıq, insanların aclıqla üz-üzə qalması, digər tərəfdən hər gün qapıları döyən şəhid xəbərləri, insanların əsir, itkin düşmüş yaxınlarından heç bir soraq ala bilməmələri o dövrü yaşayanların hər birində silinməz və dərin yaralar buraxır.

- Çalışırdım ki, bütün bu çətinliklərə dözüm, onunla mübarizə aparım. Axı, bütün bu yaşananlarda 7 azyaşlı uşağın heç bir günahı yox idi və onlar elə bilirdilər ki, məhz mən onları bu çətinliklərdən qurtaracam. Təbii ki, onların bu inamını doğrultmaq, körpə gözlərində yaranan bütün sualların cavab tapması üçün ömrümü də fəda edərdim...

Yaşadığı heç bir çətinlik onu sındıra bilmir, ailəsinin xoşbəxtliyi, övladlarının gələcəyi üçün bütün məhrumiyyətlərə, sosial sıxıntılara, mənəvi əzablara dözməyə çalışır. Övladlarının hər birinə təhsil verir, oğul, qız toyu edir, nəvə sahibi olur, amma nə qədər etsə də, ürəyində dərin iz buraxmış yurd həsrətini heç bir təsəlli ilə ovuda bilmir. Və deyir ki, kaş ki, durub görəydim ki, 25 ildir yaşadığım bu mənəvi əzabların hamısı əslində, bir yuxu imiş...

## Kişi kimi olmaq məcburiyyəti...

Güclü, əzmkar, mübariz, qayğıkeş, bir o qədər də həssas və kövrəkdirlər, əslində... Hər zaman onlardan nə isə umur, bütün çətinliklərin altından çıxacaqlarını gözləyirik. Bəli, məhz gözləyirik, hətta bunun əksi olacağı variantı belə, ağlımıza gəlmir. Cəmiyyət olaraq kişilər haqqında ümumiləşdirilmiş bir obraz biçib geyindirmişik onlara - qorxmaz, güclü, daim qalib biridir o...

Nə məğlubiyyət görə, nə acı çəkə, nə də həqiqi hisslərini büruzə verə bilər...

Bəzən üzərlərinə gedir, qınayırıq... Evdə sınan kiçik bir lampanın, yerə düşən bir çiçəyin, lap elə dünyada baş verən fəlakətlərin də günahını onlarda axtarırıq...

Onların iç dünyasından, hisslərindən o qədər xəbərsizik ki... Onların çəkdiyi bu məsuliyyət yükünə heç bir qüvvənin gücü yetməz. Səssiz-səmirsiz çiyin verirlər bu ağırlığa, bu yükə...

“Hissizsiniz, qəlbsizsiniz, acımasızsınız” - deyə qınayırıq onları, amma bilmirik ki, bədbəxtliyə düçar olanda da, kiçicik balasını əlləri ilə məzara qoymağa məcbur olanda da, anasının tabutunu aparan çiyinlərə dəstək duranda da “kişi kimi” olmağa məcburdurlar...

***Yasəmən MUSAYEVA,***
***Fərizə ƏHMƏDOVA,***
***“Azərbaycan”***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Alimlər bəşəriyyət tarixində ən dəhşətli ili açıqladılar



Miladın 536-cı ili bəşəriyyət tarixində ən pis il imiş. Bu barədə ABŞ-ın Harvard Universitetinin alimləri məlumat vermişlər. Onlar izah etmişlər ki, məhz həmin il uzun sürən soyuqlaşmaya səbəb olmuş fəlakətli vulkan püskürmələri baş vermişdir.

Tədqiqatçılar Qrenlandiya və Antarktikada yüzillik buz nümunələrini öyrənmiş və orada 536-cı ilə aid olan kül çöküntülərinin izlərini aşkar etmişlər. Bu, Bizans imperatoru I Yustinianın hakimiyyətinin onuncu ili idi. Həmin vaxt Şimal yarımkürəsində bir neçə min il ərzində illik orta temperatur ən kəskin şəkildə aşağı düşmüşdü. Müasirlərin dediyinə görə, Günəş istilik vermirmiş.

Növbəti iri vulkan püskürməsi 540-cı ildə baş vermişdir. Nəticədə “Yustinian taunu” epidemiyası, quraqlıq, qəhətlik və aclıq başlamışdır. Kütləvi yerdəyişmələr və müharibələr baş vermiş, çoxlu adam həlak olmuşdur. Lakin 100 ildən sonra yeni iqtisadi yüksəliş başlamışdır. Bu, qurğuşun mədənlərindən gümüş alınması və sikkə kəsilməsinin başlaması ilə əlaqədar idi. Buna Miladın 640-cı ilinə aid buzlarda aşkarlanmış qurğuşun izləri dəlalət edir.

## Niderland Avropa ordusunun yaradılmasında tələsməməyə çağırır



Niderlandın Baş naziri Mark Rütte bildirmişdir ki, Almaniya və Fransa Avropa ordusunu yaratmaqda tələsirlər. Bu barədə Qərb KİV-i xəbər verir.

“Fransa və Almaniya çox tələsirlər. Niderland üçün bizim müdafiə siyasətimizin əsası NATO olaraq qalır” - deyə Rütte mətbuat konfransında bildirmişdir. O əlavə etmişdir ki, bu ideya onun ölkəsi üçün çox uzaqdır. Rütte hesab edir ki, Avropa İttifaqının NATO-suz öz təhlükəsizliyini təmin etmək fikri xəyaldır. Hökumət başçısı qeyd etmişdir ki, “NATO və təşkilatın daxilindəki ABŞ Avropada sülh və təhlükəsizlik üçün əsas tərəfdaş olaraq qalırlar və biz bunu danışıqlar zamanı tərəfdaşlarımıza bildirəcəyik”.

Bir müddət əvvəl Fransa Prezidenti Emmanüel Makron bildirmişdi ki, Avropa öz ordusunu yaratmalıdır, çünki qitə dövlətləri artıq müdafiə məsələlərində ABŞ-a güvənə bilmir. Fransa liderini Almaniya Kansleri Angela Merkel dəstəkləmişdir. O, Avropanın öz ordusunu yaratmağa və rotasiya əsasında dəyişən sədri olmaqla Avropa Təhlükəsizlik Şurası təsis etməyə çağırmışdır.

## Türkiyədə 68 terrorçu zərərsizləşdirilib



Türkiyə Silahlı Qüvvələri noyabrın 9-dan 15-dək ölkə daxilində və İraqın şimalında 68 terrorçunu zərərsizləşdirmişdir. Bu barədə Milli Müdafiə Nazirliyi məlumat vermişdir.

PKK/KCK/PYD/YPG və İŞİD terrorçularına qarşı əməliyyatlar Diyarbəkir, Hakkari, Tunceli, Şırnak, Mardin vilayətlərində, habelə İraqın şimalında keçirilmişdir. Əməliyyatlar zamanı Türkiyə ordusunun 2 hərbi qulluqçusu şəhid olmuş, 3-ü yaralanmışdır.

Terrorçulardan 6 tüfəng, 1 tank əleyhinə qumbaraatan (LAW), 5736 döyüş sursatı, 54 mina, 85 kiloqram ammonium nitratı, 2 əl qumbarası, 8 ratsiya, 24 əldəqayırma partlayıcı qurğu və s. müsadirə olunmuşdur.

Bundan əlavə, terrorçuların 31 atəş nöqtəsi, sığınacaqları və silah anbarları dağıdılmışdır.

Suriyanın Afrin rayonunda “Zeytun budağı” əməliyyatı başladıqdan bəri zərərsizləşdirilmiş terrorçuların sayı 4585-ə çatmışdır.

## ABŞ-da meşə yanğınlarında itkin düşənlərin sayı 1000 nəfəri ötdü



Amerikanın Kaliforniya ştatında dağıdıcı meşə yanğınları nəticəsində 1000 nəfərdən çox adam itkin düşmüş hesab olunur. Bu barədə yerli polis məlumat vermişdir.

Son bir gün ərzində itkin düşənlərin sayı təxminən 400 nəfər artmışdır. Eyni zamanda, hakimiyyət orqanları xəbərdarlıq edir ki, itkin düşənlərin siyahısında təhlükəsiz şəraitdə olanlar da var, lakin onların yeri barədə məlumat hələ ümumi bazaya daxil edilməyib.

Ötən gün xilasedicilər daha 8 cəsəd aşkar etmişlər. Beləliklə, ştatda yanğın qurbanlarının sayı 71 nəfərə çatmışdır.

Noyabrın 8-dən bəri tüğyan edən yanğınlar Kaliforniya tarixində ən böyük tələfata səbəb olmuşdur. Yüzlərlə kvadratkilometr meşə sahəsi yanmış, milli parkların və qoruq zonalarının xeyli hissəsi məhv olmuş, minlərlə ev dağılmış, yüz minlərlə adam təxliyə edilmişdir. Fəlakətin qarşısını almaq hələ də mümkün olmur. Mütəxəssislərin fikrincə, alovun söndürülməsinə üç həftə vaxt lazım olacaq.

## Argentinada ötən il yoxa çıxmış sualtı qayıq tapıldı



ABŞ-ın “Ocean İnfinity” şirkəti Argentinada yoxa çıxmış submarinanı tapmışdır. Bu barədə ölkənin hərbi dənizçilərinin Twitterdəki səhifəsində məlumat verilmişdir.

Argentina Müdafiə Nazirliyi və hərbi dəniz qüvvələrinin məlumatına görə, obyektin sualtı aparat vasitəsilə 800 metr dərinlikdə müayinə olunması “San-Xuan” sualtı qayığının tapıldığını təsdiqləmişdir.

Xatırladaq ki, içərisində 44 heyət üzvü olan submarina ötən il noyabrın 17-də Atlantik okeanda yoxa çıxmışdır. Versiyalardan birinə görə fövqəladə hadisəyə səbəb sualtı qayıqda partlayış olmasıdır.

# Müxalifət Paşinyanı uğursuzluqda ittiham edir

## *Ermənistanda ictimai-siyasi vəziyyət sürətlə gərginləşir*

Gələn ay Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkilərinin yaxınlaşması bu ölkədə ictimai-siyasi müstəvidə daha gərgin vəziyyət yaradıb. Hakimiyyət belə vəziyyətdə yenə əsas rəqiblərinə qarşı administartiv metodlardan istifadə edərək onları neytrallaşdırmağa çalışır. Elə bunun nəticəsidir ki, Ermənistanın Xüsusi İstintaq Xidməti ölkənin ikinci prezidenti Robert Koçaryana qarşı açılan cinayət işinə yeni ittihamlar əlavə edib. Koçaryanın vəkili Ovanes Xudoyan bildirib ki, daha əvvəl Koçaryana qarşı irəli sürülən ittihamlarda dəyişikliklər edilərək müəyyən elementlər əlavə olunub: “Cinayət işinə yeni əlavələr edilib, amma ittihamların mahiyyətində dəyişiklik yoxdur. Onlar elə eyni maddələr üzrə irəli sürülən ittihamlardır”.

### Koçaryan Avropa Məhkəməsinə müraciət edib

Xatırladaq ki, Robert Koçaryan 2008-ci il martın 1-də ölkədə keçirilən etiraz aksiyalarının dağıdılması zamanı 10 nəfərin ölümü və ölkədə konstitusiya quruluşunu devirmək cəhdi ilə əlaqədar açılan cinayət işi çərçivəsində, həmçinin maliyyə maxinasiyaları və pulların yuyulmasında ittiham olunur. Ermənistan milli təhlükəsizlik xidməti sabiq prezidentin qanunsuz yolla yüz milyonlarla dollar gəlir əldə etdiyini, həmçinin Koçaryanın Yerevandakı “Konqress” mehmanxanasının 6 milyon dollar rüşvətlə necə aldığına dair faktlar açıqlayacağını bildirib.

Erməni mətbuatı yazır ki, Koçaryanın maliyyə maxinasiyalarının üzə çıxarılmasında dəlillər sarıdan məhdudiyyətlə üzləşən Ermənistanın baş naziri Nikol Paşinyan daha çox informasiyaya çıxış əldə etmək üçün sabiq prezidentin yaxın ətrafı və biznes ortaqlarına qarşı təzyiq və təhdidlər üsuluna keçib. Bütün bunlar o fonda baş verir ki, Robert Koçaryan siyasətə qayıtmağa hazırlaşır və bu da Paşinyanı narahat etdiyindən ona qarşı məlum addımlar atılır.

Baş verənlərlə bağlı Robert Koçaryanın vəkilləri onun müdafiəsinin təmin edilməsilə əlaqədar İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət ediblər. Bildirilir ki, 2008-ci il dövlət terrorunun araşdırılması işi üzrə məhkəmə zamanı hakimlərə ciddi təzyiq göstərilib və hətta onların qanuni qərar çıxardıqları təqdirdə, barələrində qərəzli ittihamlar səsləndirilib. Üstəlik, sosial şəbəkələrdə Koçaryanın vəkilləri təhdid edilir, hakim dairələr isə onların mühafizəsi üçün heç bir tədbir görmür.

### Astana sammitindəki fiasko

Bu durumda müxalifət diqqəti Nikol Paşinyanın daxili və xarici siyasətdə uğursuzluğuna yönəldərək seçkilər ərəfəsində onun mövqeyini zəiflətməyə çalışır. Bildirilir ki, baş nazir vəzifəsini icra edən Nikol Paşinyan ölkənin daxili və xarici siyasətini dalana sürükləyib. Keçmiş prezident Serj Sarkisyan isə Respublika Partiyasının son iclasında sərt çıxış edərək belə davam edəcəyi təqdirdə, daşı-daşı üstündə qoymayacağına dair bəyanat verib.

“Qraparak” qəzeti yazır ki, Serj Sarkisyan partiyanın seçki siyahısına başçılığı keçmiş müdafiə naziri Vigen Sarkisyana tapşırıb. Vigen Sarkisyan isə hökuməti olduqca sərt formada tənqid edir. Vigen Sarkisyan qeyd edib ki, o, bundan sonra yeni hökumətlə müxalif partiya kimi mübarizə aparacaq.

İndi o, əsas diqqəti Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Astana sammitində üzləşdiyi uğursuzluğa yönəldir. Xatırladaq ki, Ermənistanda 2008-ci ilin mart hadisələri ilə əlaqədar açılan cinayət işi çərçivəsində ittiham olunan Yuri Xaçaturov Yerevanın təşəbbüsü ilə müəyyən olunmuş prosedura əsasən, vaxtından əvvəl KTMT-nin baş katibi vəzifəsindən geri çağırılıb. Bu vəzifənin icrası təşkilatın baş katibinin müavini Valeri Semerikova tapşırılıb. 8 noyabrda KTMT-nin Astanada keçirilən Kollektiv Təhlükəsizlik Şurasının geniş tərkibli iclasından sonra mətbuata açıqlama verən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev bildirib ki, yeni baş katib Belarus nümayəndəsi olacaq.

Bununla da, KTMT liderləri Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Nİkol Paşinyanın hazırladığı ssenarinin üstündən birdəfəlik xətt çəkiblər. Vigen Sarkisyan qeyd edir ki, KTMT baş katib vəzifəsinin itirilməsi Ermənistan üçün uğursuzluqlar vəd edir. O bildirib ki, hakimiyyət 6 dekabrda keçiriləcək iclasda baş katib yerini qorumaq üçün hər şeyi etməlidir: “Əgər baş katib postunu əldən çıxarsaq, bu, böyük uğursuzluq olacaq”.

Onun sözlərinə görə, bu cür risklər Yuri Xaçaturova qarşı atılan addımlarda nəzərə alınmalı idi. Sarkisyan keçmiş hökumətin KTMT və Avrasiya İqtisadi Komissiyasında rəhbər postu əldə etmək üçün çoxlu güc sərf etdiyini, bunun nəticəsində Yerevanın böyük üstünlük qazandığını vurğulayıb: “Hesab edirəm ki, hər kəs Qarabağ müharibəsindən keçmiş bir generalın KTMT baş katibi təyin olunana qədər ölkəyə necə təzyiqlər olduğunu anlayır”.

### Güc strukturlarında özbaşınalıqlar yüksək həddə çatıb

Bununla yanaşı, Vigen Sarkisyan ölkədə iqtisadi vəziyyətin də pisləşdiyini vurğulayır. Bu fonda diqqət Ermənistanda Cənubi Qafqaz dəmir yolu əməkdaşlarının işi dayandırmasına yönəldilir. Çalışdıqları ərazilərdə aksiyalar keçirən dəmiryolçular hələ də tələblərinin yerinə yetirilmədiyini deyirlər.

Erməni mediası yazır ki, aksiya iştirakçıları daha qul kimi çalışmaq istəmirlər. Qeyd edilir ki, iş saatları çox, əməkhaqları isə olduqca aşağıdır. Onlardan 13-14 saat çalışmaq tələb olunur. Bunun müqabilində maaşları artırılmaq əvəzinə, 15 faiz azaldılıb. Ona görə də dəmiryolçular çıxış yolunu tətildə görüblər. Bunun nəticəsində istər sərnişin, istərsə də yük qatarlarının hərəkəti dayanıb. Dəmir yol idarəsinin yaydığı məlumatda deyilir ki, onlara işçiləri ixtisara salmaq göstərişi verilib. Çünki maaşların ödənilməsi üçün büdcədə pul yoxdur. Hələlik çıxış yolu kimi əməkhaqlarının 15 faiz azaldılması qərara alınıb.

Erməni müxalifət və mediası Paşinyan dönəmində digər çoxsaylı problemlərə də diqqət çəkirlər. Məsələn, bildirilir ki, Yerevanın Nor-Nork rayonunda tikililərin sökülməsi Paşinyan idarəçiliyinin daha bir uğursuzluğudur. Belə ki, burada mer Ayk Marutyanın göstərişi ilə ərazidəki bütün obyektlərin dağıdılmasına başlanılıb. Sahibkarlar şəhər rəhbərinin bu qərarını etirazla qarşılayıblar.

Onlar söküntü aparılan binalara daxil olmağa çalışdıqları vaxt polisin təzyiqi ilə qarşılaşıblar. Əmlak sahiblərinin sözlərinə görə, sənədləri qaydasında olduğu halda, onlara xəbərdarlıq edilmədən obyektlərini sökməyə başlayıblar.

Belə vəziyyətdə məlum olub ki, Sevan rayonunda da vəziyyət gərgindir. Bir qrup vətəndaş polis binasının qarşısına toplaşaraq aksiya keçirib. Onlar həmyerliləri, 28 yaşlı Ara Muradyanın polis bölməsinə aparılaraq döyülməsinə qarşı çıxırlar. Zərərçəkənin yaxınları deyirlər ki, rayonda bu, adi haldır. Güc strukturlarının özbaşınalıqları pik həddə çatıb. Etirazlardan sonra xüsusi xidmət orqanları məsələ ilə bağlı cinayət işi qaldırıblar. Polis bölməsinin əməkdaşları Tatul Gevorkyan və Saak Davityan əvvəlcə həbs olunub, bir neçə saat sonra isə zaminə buraxılıblar. Bu, son iki ayda polis idarəsində qeydə alınan 11-ci faktdır.

Belə halların sayının artması isə müxalifətin Paşinyana qarşı istifadə etdiyi çoxsaylı arqumentlər sırasına daxildir. Bunlar göstərir ki, qarşıdakı dövr heç də erməni iqtidarı üçün asan olmayacaq və bu hal ölkədə gərginliyi daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Ölkəmizi tanıyaq

## Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə





“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyaların daha bir mərhələsi uğurla başa çatıb.

Layihə çərçivəsində noyabrın 14-də Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə ekskursiyaya başlayan 10 rayonun - Biləsuvar, Hacıqabul, Kürdəmir, Ucar, Zərdab, Cəbrayıl, Cəlilabad, Qubadlı, Saatlı və Sabirabad məktəblilərindən ibarət qruplar noyabrın 17-də ekskursiyalarını başa vuraraq Qəbələ şəhərindən yaşadıqları rayonlara yola düşüblər.

Qəbələ şəhərindəki “Karvansaray” və “Qafqaz Sport” hotellərində qalan 360 məktəbli və onları müşayiət edən şəxslər ekskursiya müddətində Qəbələ, Şəki və Zaqatala rayonlarındakı görməli yerlərlə, muzeylərlə, tarixi məkanlarla yaxından tanış olublar.

Qəbələdəki Heydər Əliyev Konqres Mərkəzinə, “Tufandağ” Qış-Yay Turizm İstirahət Kompleksinə, “Gilan Qida Şəhərciyi”nə, Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, Nic qəsəbəsindəki “Cotari” albanudi kilsəsinə ekskursiyalar, Şəkidəki yeni istifadəyə verilən Heydər Əliyev Mərkəzi, “Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğu, Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayı, “ABAD” Keramika və Tətbiqi Sənət Mərkəzi ilə tanışlıq məktəblilərin böyük marağına səbəb olub. Tur-aksiya iştirakçıları Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzi, Tarix-Mədəniyyət Qoruğu, Tarix-Diyarşünaslıq Muzeyi ilə də tanış olub, şəhərin görməli yerlərini gəziblər.

Tur-aksiya zamanı şagirdlər ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olub, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaranıb.

Məktəblilərə mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən “Cənub qaz dəhlizi”, iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da “Azerspace 2” peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar verilib.

Aksiya çərçivəsində məktəblilərin asudə vaxtlarında “Nə? Harada? Nə vaxt?” intellektual oyunları keçirilib, qaliblərə xatirə hədiyyələri verilib, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil edilib.

Məktəblilər respublikamızın şimal-qərb bölgəsindən zəngin təəssüratlarla ayrılıblar.

* * *

“Biz bu tur-aksiyaya Zərdab rayonundan qoşulmuşuq. Qəbələ-Şəki-Zaqatalaya səfərimiz olduqca maraqlı və yaddaqalan keçdi. Əksəriyyətimiz bu bölgədə ilk dəfədir oluruq. Ölkəmizin bu dilbər guşəsi ilə tanışlıq hamımızda böyük təəssürat yaratdı. Bu gözəllikləri gördükcə, doğma Vətənimizə olan sevgimiz daha da artır. Özümüzə yeni dostlar da tapmışıq”.

Bu fikirləri “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçısı, Zərdab şəhər 1 saylı məktəb-liseyin 11-ci sinif şagirdi Bahar Həmidli Şəkidə müsahibəsində bildirib.

Şəkiyə ekskursiyaları ilə bağlı təəssüratlarını bölüşən aksiya iştirakçısı daha sonra deyib: “Şəki şəhərinin gözəlliyi haqqında kitablardan çox oxumuşdum. Atalar demişkən, min dəfə eşitməkdənsə, bir dəfə görmək daha yaxşıdır. Hər şey yüksək səviyyədə təşkil olunmuşdu. Bu tur-aksiya biz məktəblilərin biliklərimizin artırılmasında mühüm rol oynayır. Buna görə təşkilatçılara minnətdarlığımı bildirirəm”.

* * *

“Ölkəmizin şimal-qərb bölgəsinə səyahət etmək, bu bölgənin məşhur tarixi-memarlıq abidələri ilə tanış olmaq, xüsusilə də Şəki xanlarının sarayını yaxından görmək çoxdankı arzum idi. Prezidentimizin biz məktəblilərə bəxş etdiyi bu gözəl layihə sayəsində arzuma çatdım”.

Bu sözləri “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən tur-aksiyanın iştirakçısı, Hacıqabul şəhər 5 saylı tam orta məktəbin 9-cu sinif şagirdi Gülşən Gözəlova Şəkidə deyib.

Səfər zamanı Qəbələnin, Şəkinin, həmçinin bölgənin digər rayonlarının sürətlə inkişaf etdiyini öz gözləri ilə gördüyünü vurğulayan G.Gözəlova onlara bu şəraiti yaratdığına görə məktəblilər adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Hacıqabul məktəblisi daha sonra deyib: “Sürətlə inkişaf edən Azərbaycanımızın qazandığı uğurlar biz məktəbliləri də ürəkdən sevindirir. Çalışacağam ki, daha da yaxşı oxuyum, gələcəkdə yaxşı, bilikli mütəxəssis olum, doğma vətənimizin inkişafına mən də öz töhfəmi verim”.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən keçirilən “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində bölgələrə təşkil edilmiş növbəti tur-aksiyanın birinci mərhələsi başa çatıb. Bu mərhələdə Lənkəran-Masallı-Astara zonasına 382 nəfər ekskursiya edib.

Ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri dörd gün ərzində cənub bölgəsinə səyahət zamanı şəhər və rayonların tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olublar.

Noyabrın 17-də tur-aksiyanın Gəncə şəhərinin, Şəmkir, Samux, Gədəbəy, Daşkəsən, Qazax, Ağstafa, Bakının Xətai və Səbail rayonlarının IX-XI sinif şagirdləri və onların müəllimləri Lənkəran-Masallı-Astara zonasına ekskursiyanı başa çatdıraraq yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Maarifləndirici aksiyanın iştirakçılarını Lənkəran Şəhər İcra Hakimiyyətinin məsul işçiləri, müəllimlər və ictimaiyyətin nümayəndələri yola salıblar.

Cənub bölgəsindən zəngin təəssüratla ayrılan məktəblilər ölkəmizi daha yaxından tanımaq üçün yaradılan şəraitə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

* * *

“Quba və Qusarı çox bəyəndim. Qusarda Şahdağ Turizm Mərkəzi, Şeyx Cüneyd türbəsi, Qubada isə Cümə məscidi, Qırmızı Qəsəbə, Quba Soyqırımı Memorial Kompleksi, “ABAD Factory” İstehsalat Kompleksi, Tağlı körpü və başqa yerlərdə olduq. Hər bir məkan haqqında ətraflı məlumatlar aldıq. Bu ekskursiya zamanı tariximizi öyrənməklə yanaşı, ölkəmizin regionlarının nə qədər inkişaf etdiyinin də şahidi olduq”.

Bu sözləri “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Quba-Qusar-Xaçmaz marşrutu üzrə ekskursiyanın iştirakçısı Aytən İskəndərova söyləyib.

Goranboy rayonunun Teyyub Abbasov adına Baxçakürd kənd tam orta məktəbinin şagirdi Azərbaycanın hər bir rayonunun özünəməxsus təbii gözəlliyə malik olduğunu bildirib.

“Ekskursiya zamanı olduğumuz rayonlar haqqında məlumatları müəllimlərimizdən, kitablardan, televiziyadan öyrənmişdik. İndi isə gözəl təbiətə malik şimal rayonlarında gəzib-dolaşdıq, buranın tarixi, ənənələri və iqtisadiyyatı barədə ətraflı məlumatlar topladıq. Dostlarımızla bölüşəcək zəngin təəssüratlarımız var”, - deyə məktəbli vurğulayıb.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya iştirakçılarının Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə ekskursiyası uğurla başa çatıb.

Sumqayıt şəhərindən, Yasamal, Nəsimi, Nizami, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarından olan məktəblilər noyabrın 17-də Gəncə şəhərindən yaşadıqları şəhər və rayonlara yola düşüblər.

Şagirdlər Gəncə Şəhər İcra Hakimiyyətinin məsul işçiləri tərəfindən yola salınıblar.

Qeyd edək ki, 1 şəhər və 8 rayondan olan 405 nəfər noyabrın 14-dən 17-dək Gəncə şəhərinin, eləcə də Göygöl və Şəmkir rayonlarının sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər, son illərdə inşa edilən sosial obyektlər, əyləncə və istirahət mərkəzləri, tarixi-mədəni abidələr, turizm obyektləri, muzeylərlə tanış olublar. Maarifləndirici xarakter daşıyan tur-aksiya zamanı məktəblilərə bölgənin tarixi, adət-ənənələri, coğrafiyası, turizm imkanları haqqında məlumat verilib. Şagirdlərin iştirakı ilə intellektual oyunlar, müxtəlif viktorinalar keçirilib, musiqili-əyləncəli gecə təşkil olunub.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Sumqayıt Dövlət Universitetinin rektoru, professor Elxan Hüseynov və universitetin kollektivi Bakı Dövlət Universiteti Qazax filialının direktoru, professor Vüsət Əfəndiyevə anası

**GÜLSƏFA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan




AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8398
Sifariş 3364